Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 52 (8075) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İLHAM ƏLİYEV istirahət gününü paytaxt sakinləri ilə keçirdi











## Prezident gənclərlə birgə “Ulduzlar Finalı”nı izlədi

**Bakının UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final matçına evsahibliyi etməsi ilə əlaqədar ölkəmizdə təşkil olunan silsilə tədbirlər çərçivəsində martın 3-də paytaxtın mərkəzində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında “Bakı 2019: Ulduzlar Finalı” adlı qarşılaşma keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva qarşılaşmaya baxıblar.

“Bakı 2019: Ulduzlar Finalı”nda “Qərb Ulduzları” və “Şərq Ulduzları” komandaları qarşılaşıblar.

Oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununun səfiri Vəli Qasımov iştirak ediblər. Bundan başqa, Regionlar Liqasından Şöhrət Rəhimov, azarkeşlər arasında keçirilmiş müsabiqə əsasında seçilən Zaman Zahirzadə, Məhəmməd Tanrıverdiyev və Avropa Liqasının finalına həsr olunmuş “İntellektual Kubok”un qalibi olan İTV komandasının kapitanı Tural Dadaşov da meydana çıxıblar.

Əvvəlcə Prezident İlham Əliyev oyunda iştirak edən futbolçularla görüşdü.

UEFA Avropa Liqasının kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edildi.

Sonra xatirə şəkli çəkdirildi.

*Ardı 2-ci səh.*

## Prezident səfirlərin etimadnamələrini qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Venesuela Bolivar Respublikasının, Ruanda Respublikasının və Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran, Ruanda Respublikasının səfiri Vilyams Nkurunziza və Tailand Krallığının səfiri Phantipha İamsudha Ekarohit etimadnamələrini Prezident İlham Əliyevə təqdim etdilər.

## *İbrahim bin Əbdülrəhman əl-Ömər:* “Azərbaycandakı inkişaf dərin təəssürat yaradır”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, İbrahim bin Əbdülrəhman əl-Ömər İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Əl Saudun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini qeyd edərək, Azərbaycanda gördükləri inkişaf proseslərinin, mədəniyyət və arxitektura nümunələrinin, xüsusilə Heydər Əliyev Mərkəzinin gözəlliyinin nümayəndə heyəti üzvlərində dərin təəssürat yaratdığını vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanda gedən böyük quruculuq işlərinin, ən müasir infrastrukturun yaradılmasının iqtisadiyyatın bütün sahələrinə, o cümlədən turizmin inkişafına böyük təkan verdiyini vurğuladı.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq əlaqələrinin genişləndiyi, ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, İbrahim bin Əbdülrəhman əl-Ömərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, hökumətlərarası komissiyanın əməkdaşlığın inkişafı işinə töhfə verdiyi qeyd edildi.

Söhbət zamanı həmçinin bildirildi ki, Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə və ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymaqda maraqlıdır. Məmnunluq ifadə olundu ki, bir il ərzində Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı dəfələrlə artıb.

Görüşdə ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, energetika, investisiya, bərpa olunan enerji mənbələrinin yaradılması, turizm və turizm infrastrukturu, sənaye, kənd təsərrüfatı, neft-qaz, alternativ enerji, nəqliyyat və digər istiqamətlərdə əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi, ticarət dövriyyəsinin artırılmasının və bunun üçün logistik və nəqliyyat imkanlarının araşdırılmasının vacibliyi qeyd olundu.

Dövlətimizin başçısı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Əl Saudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və vəliəhdə çatdırmağı xahiş etdi.

## 50 ölkə, 3600-dən çox atlet, 10 idman növü

### “Bakı-2019” Avropa Gənclər Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı olacaq

Avropanın idman paytaxtı Bakı bu il bir-birindən daha maraqlı mötəbər idman yarışlarına evsahibliyi edəcək.

Belə ki, Azərbaycan aprelin 26-28-də “Formula-1” Azərbaycan Qran-prisinə, mayın 29-da UEFA Avropa Liqasının final qarşılaşmasına, iyulun 20-28-də isə XV Yay Avropa Gənclər Olimpiya Festivalına evsahibliyi etməklə tarixini daha möhtəşəm nailiyyətlərlə zənginləşdirəcək. Həmin yarışlar ərəfəsində milyonlarla insanın qəlbi Bakıda döyünəcək. Bu mühüm hadisələr bir daha nümayiş etdirir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır.

### Niyə məhz Azərbaycan?

Son dörd ildə bir-birini əvəzləyən idman yarışları Bakının daha böyükmiqyaslı yarışlara evsahibliyi etmək imkanlarını artırıb. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

*Ardı 8-ci səh.*

# İLHAM ƏLİYEV istirahət gününü paytaxt sakinləri ilə keçirdi

## Prezident gənclərlə birgə "Ulduzlar Finalı"nı izlədi







*Əvvəli 1-ci səh.*







Daha sonra oyun başladı.

Gərgin idman mübarizəsi şəraitində keçən görüş "Qərb Ulduzları" komandasının 11:10 hesablı qələbəsi ilə başa çatdı.

Sonra Prezident İlham Əliyev oyunu izləyən gənc azarkeşlərlə görüşdü, xatirə şəkilləri çəkdirdi.

❖ ❖ ❖

Qeyd edək ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunur. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda dekabrın 22-dən yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib. Fevralın 28-də isə UEFA Avropa Liqasının final oyununa ümumi oturacaqlar üçün bilet satışının qeydiyyatına başlanılıb. Bilet satışının bu mərhələsində həlledici görüş üçün nəzərdə tutulan 64 min biletdən 37 min 500-ü ümumi satışa buraxılıb.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start veriləcək. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olacaq kubok mayın 16-da rəsmi qaydada Bakıya gətiriləcək.

UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına - I Avropa, IV İslam Həmrəyliyi oyunlarına, "Formula-1" yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə evsahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara evsahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyunun 20-28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir. İdmançılarımızın olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq var. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.

# Müxtəlif etnik və dini icmaların dinc yanaşı yaşamaları baxımından Azərbaycan dünyada nümunəvi dövlətdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif dini və etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirdi.

Dövlət başçısı qeyd etdi ki, multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlərboyu yaşatdığı həyat tərzidir.

Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulandı.

# Prezident İlham Əliyev: "Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır"

Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər - təqdimat və sərgilər təşkil edərək qədim İslam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və İslamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir. Yəni, regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 80-ci kitabında yer alan bu fikirləri dövlət başçısı 2017-ci il mayın 5-də IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimindəki nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin may-iyun aylarını əhatə edir.

Kitaba Prezident İlham Əliyevin IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış və bağlanış mərasimlərində iştirakına, XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanışlığına dair materiallar, XXIV Beynəlxalq "Xəzər neft və qaz-2017" sərgi və konfransının açılış mərasimində nitqinin mətni, həmçinin VII Xəzər Beynəlxalq "Energetika və alternativ enerji" sərgisinin açılışında iştirakı haqqında informasiya daxil edilib.




Nəşrdə dövlət başçısının Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına, habelə Polşaya səfərləri, Azərbaycana səfər etmiş Moldova Prezidenti ilə apardığı danışıqlar barədə materiallar, imzalanan sənədlər, dövlət başçılarının mətbuata bəyanatları haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan "OIC Journal"da dərc edilmiş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsi verilib.

Çoxcildliyin 80-ci kitabında Prezident İlham Əliyevin İordaniya, Səudiyyə Ərəbistanı, Niderland, Birləşmiş Ərəb Əmirlikləri, ABŞ və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da yer alıb.

Oxucular bu kitabda ölkə başçısının Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfəri zamanı sakinlərlə görüşünü, burada yeni inşa olunmuş 96 şagird yerlik məktəblə, həmçinin məscidlə, kənddə aparılan bərpa işləri ilə tanışlığını, eləcə də Şirvan şəhərinə səfərini əks etdirən materiallarla tanış ola bilərlər.

Nəşrdə Azərbaycan Prezidentinin Bakının Yasamal rayonunda yeni tikilən yolların açılışı, Qaradağ rayonunda SOCAR-ın "Caspian Drilling" şirkətinin dəniz təchizat və logistika bazasında Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı, Xəzər Dəniz Gəmiçiliyi Donanmasının "Qubadlı" və "Cəbrayıl" gəmilərinin istismara verilməsi mərasimlərində iştirakı barədə informasiyalar toplanıb.

Prezident İlham Əliyevin "Bakı Ürək Günləri" V Beynəlxalq Konqresinin iştirakçılarına məktubu və digər məktubları da bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 80-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 11,0 (on bir) milyon manat, o cümlədən küçələrin əsaslı təmiri üçün 4,0 (dörd) milyon manat, işıqlandırma sistemlərinin yenilənməsi üçün 1,0 (bir) milyon manat, əhaliyə kommunal xidmətlər göstərilməsi sahəsində istifadə olunan maşın və mexanizmlərin alınması üçün 6,0 (altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2019-cu il*

# Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan teatr sənəti ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamışdır. Xalqımız milli ədəbiyyatın qiymətli nümunələri ilə yanaşı, dünya dramaturgiyasının inciləri ilə məhz Azərbaycan teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişdir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz xidmətləri vardır.

Azərbaycan teatrının fəaliyyəti həmişə olduğu kimi, bu gün də dövlətimizin diqqət mərkəzindədir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir.

Azərbaycan teatr xadimlərinin müraciətini nəzərə alaraq, Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan teatr ənənələrinin qorunub saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2019-cu il*

# Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin mart ayında görkəmli opera müğənnisi, aktyor, rejissor, pedaqoq və teatr xadimi, xalq artisti Hüseynqulu Sarabskinin (Hüseynqulu Məlik oğlu Rzayevin) anadan olmasının 140 illiyi tamam olur.

Hüseynqulu Sarabski Azərbaycanın teatr və musiqi mədəniyyətinin böyük nümayəndələri sırasında layiqli yer tutan tanınmış şəxsiyyətlərdəndir. Şərqlə Qərbin musiqili teatr ənənələrinin qovuşuğunda meydana gəlmiş və dünya opera sənətinin unikal hadisəsinə çevrilmiş muğam operasının təşəkkülündə onun ifaçı kimi müstəsna xidmətləri vardır. Muğamları dərindən bilən, parlaq aktyorluq istedadına malik sənətkar milli opera və operettalarda əsas partiyaların ilk və unudulmaz ifaçısı olmuş, uzunmüddətli dolğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaratmışdır. Sarabski respublikanın mədəni həyatında yaxından iştirak etmiş, eyni zamanda, muğam sənətinin təbliği və tədrisinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan teatr sənətinin inkişafı naminə təqdirəlayiq fəaliyyətini nəzərə alaraq xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi görkəmli sənətkar Hüseynqulu Sarabskinin 140 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2019-cu il*

# Azərbaycan və İtaliya önəmli tərəfdaşlardır



Martın 4-də Milli Məclisin ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvləri ölkəmizdə səfərdə olan ATƏT PA-da İtaliya nümayəndə heyətinin üzvləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin müavini, Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova bu iki nümayəndə heyətinin ATƏT çərçivəsindəki əməkdaşlıq əlaqələrindən danışıb. Bildirib ki, bir çox məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Bahar Muradova İtaliyanın ATƏT PA-ya sədrliyi dövründə görülən işlər haqda danışıb. O, hazırkı dövrdə iqtisadiyyat, hərbi-siyasi, insan hüquqları baxımından mövcud olan çağırışları qeyd edərək ölkələrin ərazi bütövlüyünə qarşı yönəlmiş təhdidlərin yalnız birgə səylər sayəsində aradan qaldırıla biləcəyini vurğulayıb.

Milli Məclis Sədrinin müavini Azərbaycan-İtaliya əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi baxımından dövlət rəsmilərinin qarşılıqlı səfərləri zamanı imzalanmış sənədlərin əhəmiyyətindən söz açıb, ölkəmizin təşəbbüsü ilə yaradılmış ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupuna 24-cü üzv olaraq daxil olan İtaliyanın təmsilçilərini təbrik edib. Bahar Muradova bu müstəvidə əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açıldığını bildirib.

Görüşdə İtaliya Deputatlar Palatasında Xarici əlaqələr komissiyasının sədr müavini, ATƏT PA-da İtaliya nümayəndə heyətinin rəhbəri Paolo Qrimoldi bildirib ki, Azərbaycan İtaliya üçün önəmli tərəfdaşdır. Ölkələrimiz energetika və iqtisadiyyat sahələrində əməkdaşlıq edirlər. ATƏT bu əməkdaşlığı daha geniş çərçivədə həyata keçirmək üçün gözəl qurumdur. Biz ATƏT-də Azərbaycanın maraqlarını müdafiə etmək üçün əlimizdən gələni edirik.

Söhbət zamanı ikitərəfli əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti və Büro üzvü, İpək Yoluna Dəstək Qrupunun rəhbəri Azay Quliyev, deputat Tahir Mirkişili fikirlərini bildiriblər. Əminlik ifadə olunub ki, hazırkı səfər daha məhsuldar əlaqələrin qurulmasına xidmət edəcək.

Görüşdə Azərbaycanın İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə və digər rəsmi şəxslər iştirak ediblər.

# Bakıda Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıqla bağlı Təşkilat Komitəsinin növbəti iclası keçirilib

## Sessiyada 180-dən çox ölkədən 3 minədək nümayəndənin iştirakı gözlənilir



Martın 4-də UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentinin müvafiq sərəncamı əsasında yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Təşkilat Komitəsinin sədri, mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib.

Nazir deyib ki, ölkəmizin son illər sürətlə inkişaf etməsi dünya birliyində yüksək qiymətləndirilir. Mötəbər beynəlxalq təşkilatların öz tədbirlərini Azərbaycanda keçirmələri müstəqil dövlətimizin nüfuzundan xəbər verir.

Ə.Qarayev Azərbaycan-UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın xidmətlərini xüsusi vurğulayıb. Qeyd olunub ki, Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, 43-cü sessiya 2019-cu il iyunun 30-dan iyulun 10-dək Bakı şəhərində keçiriləcək. Bütün dünyanı əhatə edən komitə üzvlərinin ölkəmizin belə nüfuzlu bir tədbirə evsahibliyi etməsini dəstəkləməsi, sözsüz ki, ilk növbədə, Azərbaycanın nüfuzunun artdığını təsdiqləyir. Azərbaycanın 42-ci sessiyada bir il müddətinə komitənin sədri seçilməsi UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsinin göstəricisidir.

Komitənin ilk iclasının keçirildiyini və bir sıra məsələlərə aydınlıq gətirildiyini bildirən nazir deyib: "UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi həqiqətən olduqca məsuliyyətli bir işdir. Xüsusilə qeyd etmək istəyirəm ki, Ümumdünya İrs Komitəsinin əvvəlcədən göndərilmiş şərtlər toplusu var idi. Bu şərtlərlə bütün dövlət orqanları tanış olublar. Şərtlərin həlli istiqamətində lazımi işlər görülüb. Demək olar ki, biz ötən müddət ərzində mühüm işlər görə bilmişik və qarşıdakı zaman kəsiyində də lazımi işlərin həllinə nail olacağıq".

Ümumdünya İrs Komitəsinin çox əhəmiyyətli bir qurum olduğunu söyləyən nazir deyib ki, bu gün dünyada 1500-ə yaxın abidə komitə tərəfindən qorunur. Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biri hesab olunur. Komitə dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və təbii irs nümunələrinə, ən dəyərli abidələrə dair qərarlar qəbul edir. Bu tədbirə evsahibliyi etmək və eyni zamanda, komitəyə sədrlik etməklə Azərbaycan Respublikası dünya xalqlarının mədəniyyət tarixində öz müsbət izini qoyacaq.

Diqqətə çatdırılıb ki, qurumun 43-cü sessiyası təkcə mədəniyyətlə bağlı deyil. Burada təbiət qoruqlarının siyahıya salınması nəzərdə tutulub. Ona görə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən də bu nominasiyaların nəzərdən keçirilməsinə başlanılıb.

UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Metşild Rosler Əməliyyat Komitəsinin indiyə qədər keçirdiyi məhsuldar görüşlərə görə iştirakçılara minnətdarlığını bildirib. O deyib ki, bu görüşdə, həmçinin UNESCO texniki komitəsinin üzvləri də iştirak edirlər.

"UNESCO-nun ən əhəmiyyətli tədbirlərindən biri hesab edilən bu sessiyada 180-dən çox ölkədən 3 minədək nümayəndənin iştirakı gözlənilir. UNESCO ilə Azərbaycan arasında sıx əməkdaşlıq münasibətləri mövcuddur. Əminəm ki, bu əhəmiyyətli tədbir də yüksək səviyyədə təşkil olunacaq. İclas zamanı əsas müzakirə mövzularından biri də UNESCO-nun Ümumdünya İrs Siyahısına yeni obyektlərin daxil edilməsi və bu istiqamətdə aparılan işlər olacaq", - deyə Metşild Rosler qeyd edib.

Sonra 43-cü sessiya üçün hazırlanmış veb-saytın təqdimatı olub.

Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini - Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə çıxış edərək təşkilat komitəsinin birinci iclasından sonra həyata keçirilən tədbirlər haqqında məlumat verib. Bildirib ki, sessiyanın keçiriləcəyi Bakı Konqres Mərkəzində bir neçə görüş təşkil edilib, həmçinin mərkəzin imkanları nəzərdən keçirilib.

V.Eyvazzadə iclas iştirakçılarına UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının loqosu və veb-saytı haqqında məlumat verib: "Loqo Bakının müasirlik və qədimlik simvolları olan Qız qalası, Şirvanşahlar sarayı və Heydər Əliyev Mərkəzinin görünüşünü özündə əks etdirir. Saytda iştirakçıların qeydiyyatı, ölkəmizin mədəniyyəti, tarixi abidələri haqqında ətraflı məlumat yer alıb. Sayt tam olaraq martın sonlarına kimi istifadəyə veriləcək. Tədbirin gedişi sayt vasitəsilə canlı yayımlanacaq".

Sonra iclas Təşkilat Komitəsi üzvlərinin müzakirələri ilə davam edib.

# Prezidentin tapşırıqları məsuliyyətlə icra olunur

"Prezident İlham Əliyev paytaxtın qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı qarşıya ciddi tapşırıq qoyub. Bu tapşırıq əsasında Bakı şəhəri və onun qəsəbələrinin inkişafı ilə xüsusi proqram hazırlanır".





Bu fikirləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Sabunçu rayonu Maştağa qəsəbəsinin sakinləri ilə görüşdə səsləndirib. Prezidentin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığı çərçivəsində reallaşan bu tədbirdə Eldar Əzizov vurğulayıb ki, dövlət başçısının tapşırığına uyğun olaraq son illərdə Bakının inkişafı, gözəlləşdirilməsi, müasir infrastrukturunun yaradılması üçün mühüm işlər həyata keçirilir. Paytaxtın inkişaf strategiyasına uyğun şəkildə aparılan quruculuq işləri Bakının bütün rayonlarını əhatə edib.

Bakı Şəhər İcra hakimiyyətinin başçısı kimi əhali ilə ilk görüşünü Mastağa qəsəbəsində keçirən Eldar Əzizov diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamların, qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində paytaxtda və onun qəsəbələrində xeyli sayda yeni məktəb, uşaq bağçası, tibb müəssisələri inşa edilib, köhnələri isə əsaslı təmir olunub. Bakı şəhərində həyata keçirilən "Abad məhəllə" layihəsi çərçivəsində son 6 ay ərzində 50-dən çox məhəllə əsaslı təmir edilib. Bununla yanaşı, paytaxtda çoxmənzilli binaların dam örtükləri, girişləri, fasadları əsaslı təmir olunur və bu işlər hazırda da davam etdirilir: "Əhalinin sosial təminatının gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən bu işlər bir daha təsdiq edir ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial siyasətin, bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır".

Sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunan görüşdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, Bakı şəhər və Sabunçu rayonu təsərrüfat və digər xidmət sahələrinin rəhbərləri, Maştağa qəsəbə sakinləri, eləcə də Nardaran qəsəbəsindən gəlmiş ağsaqqallar da iştirak ediblər.

Görüşdə Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Maştağa qəsəbəsi üzrə nümayəndəsi Şamil Alıyevin qəsəbədə görülmüş işlərlə bağlı hesabatı da dinlənilib. Hesabatda son illər bütün ölkə ərazisində olduğu kimi, qəsəbədə də təhsil, səhiyyə, sənaye və digər sahələrdə mühüm nailiyyətlərin əldə edildiyi öz əksini tapıb.

"Açıq mikrofon" formatında sakinlərin fəallığı ilə keçən görüşdə çıxış edən 35 nəfər qəsəbə sakini Bakı şəhərində, eyni zamanda, Maştağa qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlət başçısının həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə ediblər.

Sual və təkliflərini də səsləndirən maştağalılar qəsəbədə və Savalan massivində yeni qəbiristanlığın salınması, ATS və poçt məntəqəsinin tikilməsi, qəsəbədə bankomatların sayının artırılması xahişini ediblər. Bildirilib ki, qəsəbədə məhəlledaxili küçələrin işiqlandırılması, daxili yolların təmiri və asfaltlaşdırılması, qadınlar üçün iş yerlərinin açılması zərurəti yaranıb. Həmçinin qəsəbədə su problemi, sənədsiz evlərin rəsmiləşdirilməsi, internet və mobil rabitənin çox zəif olması sakinləri narahat edən məsələlər sırasındadır. Əhalinin sayının artması isə bəzi məktəblərdə şagird sıxlığının yaranmasına səbəb olub. Ona görə də yeni məktəb və ya məktəb binaları üçün əlavə korpusun tikilməsinə ehtiyac var.

Bütün təklif və xahişlər diqqətlə dinlənilib və verilən suallarla, müraciətlərlə bağlı yerindəcə müvafiq tapşırıqlar verilib.

Bu kimi görüşlərin digər qəsəbələrdə də keçirilməsi nəzərdə tutulub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# *Səməd SEYİDOV:* "AŞ PA-ya üzv ölkələrdə problemlərin araşdırılması və həllində hər hansı üzvün hədəf seçilməsi qəbulolunmazdır"

Azərbaycan Prezidentinin apardığı uğurlu xarici siyasət ölkəmizin həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əsas mehvərdir. Bəzi təşkilatlarda, eləcə də AŞ PA-da bir qrup insan antiazərbaycan mövqeyi tutaraq qeyri-obyektiv münasibətləri ilə ölkəmizin imicinə xələl gətirmək istəyirlər. AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsində çirkli pulların yuyulmasına dair mövzu gündəlikdə əks olunsa da, icraata qəbul edilməyib və yekdilliklə gündəlikdən çıxarılıb.

Bu fikirləri AŞ PA-nın komitə iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində söyləyib.

O bildirib ki, Azərbaycan nümayəndə heyətinin apardığı iş nəticəsində martın 4-də Parisdə AŞ PA-nın komitə iclasında yuxarıda adıçəkilən məsələ gündəlikdən çıxarılıb. "AŞ PA-nın üzv ölkələrində problemlərin araşdırılması və onların həll olunmasında hər hansı bir ölkənin hədəf seçilməsi qəbulolunmazdır. Bütün məsələlər ümumi kontekstdə müzakirə edilməlidir", - deyə S.Seyidov diqqətə çatdırıb.

Nümayəndə heyətimizin rəhbəri vurğulayıb ki, AŞ PA-nın əsas problemlərindən biri daxilində ikili standartları müəyyən edib aradan qaldırmaq istiqamətində səylər göstərməməsidir: "Bu gün ölkəmizə qarşı bu qərəzli məruzənin gündəlikdən çıxarılmasının həm qlobal problemlərin həllinə, həm də AŞ PA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm".

# *Paolo QRİMOLDİ:* "İtaliya ilə Azərbaycan arasında siyasi, iqtisadi əlaqələr yüksək səviyyədədir"

Martın 4-də Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyası yanında İtaliya nümayəndə heyəti ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli ölkələrimiz arasındakı münasibətlərin qədim tarixə malik olduğunu deyib. Bildirib ki, 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda demokratik respublika elan edilib. Daha sonra 1991-ci ildə ölkəmiz öz dövlət müstəqilliyini bərpa edib. Hər dəfə İtaliya Azərbaycanla münasibətlər quran ilk ölkələr sırasında olub. 2017-ci ildə Azərbaycan-İtaliya diplomatik münasibətlərinin 25 illiyi qeyd olunub.

Vurğulanıb ki, iki dövlət arasında əlaqələr yüksək səviyyədədir. 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri zamanı strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul olunub. 2018-ci ildə İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə səfəri baş tutub. Həmin il Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya səfəri zamanı orada Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə keçirilən konfransda iştirak edib. Eyni zamanda, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu İtaliya tarixi abidələrinin bərpasına böyük dəstək göstərir. Ötən il, həmçinin İtaliya Senatının sədri Mariya Kasellati Azərbaycana rəsmi səfərə gəlib.

Diqqətə çatdırılıb ki, dövlətlərarası münasibətlərin inkişafında parlamentlər xüsusi rol oynayır. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımız həm dostluq qrupları çərçivəsində, həm də müxtəlif beynəlxalq təşkilatlarda qarşılıqlı faydalı əməkdaşlıq edirlər. İki ölkə arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün potensial imkanlar mövcuddur.

Azər Kərimli vurğulayıb ki, Azərbaycan nəinki regionda, bütün dünyada dinamik inkişaf edən ölkələrdən biridir. Lakin bizim Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemimiz var. Münaqişə nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilib. Azərbaycan problemin sülh yolu ilə həllinə çalışır. Ermənistan isə tamam fərqli mövqe nümayiş etdirərək, beynəlxalq təşkilatların erməni silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarlara riayət etmir, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur. Təqdirəlayiq haldır ki, 2010-cu ildə İtaliya Senatında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi əks olunan qətnamə qəbul edilib. Həmçinin İtaliya parlamentinin xarici əlaqələr komitəsində də eyni məzmunlu sənəd qəbul olunub.

ATƏT Parlament Assambleyasında İtaliya nümayəndə heyətinin rəhbəri Paolo Qrimoldi ölkəmizə səfərindən və burada gördüklərindən məmnun qaldığını deyib. O, Şəhidlər xiyabanını ziyarət edərkən baş verən hadisələr barədə aldığı məlumatlardan çox təsirləndiyini söyləyib.

Qonaq İtaliya ilə Azərbaycan arasında siyasi, iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu deyib. O, İtaliyanın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini, bu səfərin parlamentlər arasında münasibətlərin inkişafına müsbət təsir göstərəcəyini bildirib, nümayəndə heyətlərinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının əhəmiyyəti barədə danışıb. Paolo Qrimoldi iqtisadi, elm, mədəni, humanitar sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduqlarını deyib.

Paolo Qrimoldi Azərbaycanda bütün sahələrdə müşahidə olunan dinamik inkişafı qeyd edib, o cümlədən paytaxt Bakının görkəminin daha da gözəlləşdiyi, müasirləşdiyi barədə xoş təəssüratlarını bölüşüb. Qonaq ölkəmizin qısa müddət ərzində qazandığı uğurları təqdir edib.

# Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin Ermənistanın Rusiyadakı səfirinə açıq məktub göndərib

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin rusiyalı deputatların Bakıda keçirilən yürüşdə iştirakına görə Ermənistanın Rusiya Federasiyasındakı səfiri Vardan Toqayanın hiddətlənməsi ilə əlaqədar ona açıq məktub göndərib.



AZƏRTAC məktubu təqdim edir: "Cənab səfir. Təəssüf ki, siz haqlısınız. Rusiya dövləti Ermənistana həmişə ciddi kömək göstərib və göstərir, onu dəstəkləyib və dəstəkləyir. Rusiyanın sayəsində Ermənistan dövlətinin və erməni xalqının sosial-iqtisadi vəziyyəti hələ "mövcudluğunu" davam etdirir və "o, köpəyoğludur, amma bizim köpəyoğludur" prinsipi əsas götürülməklə Ermənistana hər şeyi bağışlayırlar.

Rusiyalı bir sıra parlamentarilərin və bəzi ictimai xadimlərin mövqeyinə görə sizin hiddətlənməyinizin səbəbi tamamilə aydındır, axı onlar Ermənistandan icazə istəmədən Xocalı faciəsinin qurbanlarına abidə önünə çiçəklər qoymağı, qolları heç bir təqsiri olmayan Xocalı sakinlərinin - qocaların, qadınların və uşaqların qanına dirsəyə qədər bulaşmış erməni nasistlərin hərəkətlərinə obyektiv münasibət bildirməyi özlərinə rəva görüblər.

Ermənistanın faşist ideologiyasının və Rusiyaya qarşı mübarizənin rəmzinə çevrilmiş nasist cani Qaregin Njdenin timsalında nasizmin tərifələnməsinə və qəhrəmanlıq kimi qələmə verilməsinə görə monomillətli, millətçi Ermənistanı kim qınaya bilər?!

Ermənistanda rus əhalinin və rus dilinin sıxışdırılmasına, rus məktəblərinin bağlanmasına görə Ermənistanı kim qınaya bilər?!

"Dənizdən-dənizə böyük Ermənistan" kimi şovinist və "böyük millətçilik" arzusu naminə terrorizmə, qonşu dövlətin ərazisinin 20 faizinin işğal edilməsinə görə Ermənistanı kim qınaya bilər?!

Siz Rusiya ilə "dostluq və səmimi münasibətlər körpüləri salınması" barədə danışanda yəqin ki, Ermənistanın bu siyasətini nəzərdə tutursunuz.

Xoşbəxtlikdən, böyük Rusiyada nasist ideologiyasını əsas tutan Ermənistanın şovinist, millətçi siyasətinin nəyə gətirib çıxara biləcəyini anlayan siyasətçilər və ictimai xadimlər çoxdur və Rusiyanın "öz köpəyoğlusunun" hərəkətlərinə səbri tükənməz deyil".

# Milyonların sevinci



**2018-ci ildə qazanılan iqtisadi uğurların 2019-cu ildə daha yüksək nəticələrlə təkrarlanacağı şübhəsizdir. Eyni zamanda, bu il sosial sahədə qəbul edilən mühüm qərarlarla əlamətdar olacaq. Təkcə fevral ayında Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar 3 milyon insanın həyatında hiss olunub.**

**Bu mövzu ilə bağlı Milli Məclisin deputatları öz qənaətlərini qəzetimizlə bölüşdülər.**





## İlham Əliyevin iqtisadi islahatlarının nəticəsi həm də sosial sferada görünür

**Rafiq MƏMMƏDHƏSƏNOV,**
*Milli Məclisin deputatı, professor:*

- Sözü, vədi ilə əməli üst-üstə düşən Prezident İlham Əliyevin son 15 ildə dövlətin daha da qüdrətlənməsi, xalqının rifah halının yaxşılaşdırılması istiqamətində yürütdüyü müstəqil siyasət, həyata keçirdiyi sosial-iqtisadi islahatlar əsl liderlik, insansevərlik, humanistlik və vətənpərvərlik nümunəsidir. Xalqa xidmət etməyi ən böyük vəzifəsi bilən dövlət başçısının elə bir vədi yoxdur ki, həyata keçməsin.

Müharibə şəraitində olmasına baxmayaraq cənab İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycan maliyyə imkanlarını xeyli dərəcədə artırıb. Büdcə gəlirlərinin artması, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsi isə bu vəsaitlərin məhz sosial sferaya yönəldilməsinə real zəmin yaradıb.Vətəndaşların sosial rifahının yaxşılaşdırılmasını ən başlıca vəzifə hesab edən dövlət başçısı 2019-cu ilin başlanğıcından bu istiqamətdə həyata keçirdiyi islahatlarla siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqlədi. Təkcə fevral ayında minimum əməkhaqqının, minimum pensiyanın, təqaüdlərin, müavinətlərin artırılması, digər ödənişlərin verilməsi istiqamətində imzalanan fərman və sərəncamlar Prezidentin böyük sosial paketinin ilkin təzahürləridir.

Əgər diqqət yetirsək görərik ki, imzalanan sərəncam və fərmanlar milyonlarla insanın sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Məsələn, minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edirdisə, sosial müavinətlərin orta hesabla 100 faiz artırılması ilə bağlı sərəncam təxminən 600 min insana şamil olundu. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı fərman təxminən 350-400 min insanı əhatə edir.

Dövlət başçısının hər zaman diqqət və qayğısı ilə əhatə olunan şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı sevindirdi. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır. Yəni, cənab İlham Əliyevin son bir ayda ardıcıl olaraq imzaladığı sərəncam və fərmanlar yüz minlərlə vətəndaşımızın dolanışığının müsbət yöndə dəyişməsinə təsir edəcək.

Digər sosialyönümlü addımlar və fevralın 28-də Prezidentin əhalinin problemli kreditlərinin həlli ilə bağlı verdiyi fərman isə xalqın böyük sevincinə səbəb oldu. Çünki dünyada analoqu olmayan bu sənəd bir milyona yaxın insanın problemini həll edəcək.

Qlobal iqtisadi və maliyyə böhranı, bununla əlaqədar enerji resurslarının qiymətinin kəskin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da öz təsirlərini göstərmiş, nəticədə əhalinin müəyyən qrupunun ödəmə qabiliyyəti zəifləmiş, xarici valyutada borc almış vətəndaşların banklar qarşısında öhdəlikləri artmışdı. Hətta məsələ ilə bağlı məhkəmə mübahisəsində baxılma halları çoxalmışdı. Ancaq son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdı.

Problemin optimal həlli yollarını tapmaq, bu məsələni əhali və dövlət büdcəsi üçün ən əlverişli variantda aradan qaldırmaq məqsədilə 2018-ci ildən ictimai müzakirələr təşkil olundu və Azərbaycan Prezidentinin tapşırığına əsasən hökumət bu istiqamətdə fəal iş apardı və təkliflər hazırladı. Paralel olaraq bu məsələ Milli Məclisdə müzakirə edildi və müxtəlif təkliflər irəli sürüldü.

Nəhayət, dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərmanla bu məsələnin həlli yolu müəyyənləşdirildi. Bu fərman dövlətin öz vətəndaşının yanında, bütün problemlərinin həllində daim iştirakçı və yardımçı olduğunu göstərdi. Bu, bir daha Azərbaycan dövlətinin iqtisadi qüdrətini, cənab İlham Əliyevin dönməz iradəsini ortaya qoydu. Prezident devalvasiyadan əziyyət çəkən insanlara misilsiz dəstək göstərdi.

Hər bir dövlət vətəndaşının sosial müdafiəsi üçün müxtəlif layihələr həyata keçirir. Ancaq heç bir ölkədə cəmi bir ayda bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını güdən fərman və sərəncamlar imzalanmayıb. Cənab İlham Əliyevin böyük sosial paketi təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha dövlətin əsl niyyətini göstərir.

Problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsüdür. Vətəndaşların rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq məqsədi daşıyır. Azərbaycan o dövlətlərdəndir ki, burada bütün məsələlər - problemin ciddiliyi, ağırlıq yükü, onun həllinin büdcəyə, əhalinin rifah halının yüksəlməsinə təsiri, maliyyə imkanları, səmərəli tətbiq mexanizminin işlənib hazırlanması, icrası və icraya nəzarət hərtərəfli araşdırıldıqdan sonra müvafiq qərar qəbul olunur.

Martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə keçirilən görüşdə genişmiqyaslı sosial islahatlardan söz açan Prezident bir daha vurğuladı ki, bu islahatlar bütün sahələri əhatə edəcək. Bu səbəbdən də 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaq.

Əminliklə deyə bilərik ki, xoşməramlı, humanist siyasəti, hər zaman əhalinin sosial problemlərini diqqətdə saxlaması, şad gündə də, çətin anlarda da vətəndaşların yanında olması ilə cənab İlham Əliyev xalqın sevimli liderinə çevrilib. Sözün əsl mənasında, bu gün Azərbaycanda sarsılmaz xalq-Prezident birliyi formalaşıb.

## Vətəndaş məmnunluğuna yol açan sosial təşəbbüslər

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Bu gün Azərbaycanda iqtisadi sferada həyata keçirilən siyasətin və nail olduğumuz inkişafın özünü qabarıq göstərən ən mühüm cəhətlərindən biri sosialyönümlülük faktorudur. Çünki ölkə rəhbərliyinin inkişaf kursunun əsas qayəsi ondan ibarətdir ki, respublikamızda aztəminatlı vətəndaş olmamalı, hər kəsin yüksək sosial rifahı təmin edilməlidir. Bu baxımdan aparılan məqsədyönlü siyasət nəticəsində yüksək inkişaf göstəricilərinə malik olan iqtisadiyyatımız əhalinin etibarlı sosial müdafiəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin edib. Fərəhli haldır ki, geridə qoyduğumuz hər bir il sosial rifaha xidmət edən tədbirlərin işlənib hazırlanması və uğurla reallaşması ilə əlamətdardır.

Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsipinin gücləndirilməsi, əhalinin bütün təbəqələri üçün bərabər və əlçatan sosial təminat mexanizminin yaradılması və təkmilləşdirilməsi, o cümlədən onun ünvanlılığının təmin edilməsi, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, sosial reabilitasiya əhəmiyyətli aktiv tədbirlərin həyata keçirilməsi, sosial xidmət sisteminin cəmiyyətin ehtiyaclarına uyğun qurulması kimi mühüm prioritetlər ölkəmizdə daim diqqətdə saxlanılır. Elə buna görə də geniş miqyasda həyata keçirilən sosial müdafiə tədbirləri hətta dünya iqtisadiyyatının böhranlı günlərində də davam etdirildi. Aztəminatlı əhaliyə ünvanlı sosial yardımların verilməsindən tutmuş, əlillərin, müharibə veteranlarının, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına qədər bütün sosial müdafiə tədbirləri uğurla həyata keçirildi.

Son illərdə Azərbaycan iqtisadiyyatında yeni keyfiyyət dəyişiklikləri baş verir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, 2017-ci il ölkəmizdə iqtisadi sabitləşmə dövrü oldu. 2018-ci ildə isə biz başlanmış iqtisadi islahatların daha geniş miqyasda bəhrəsini gördük. Təbii ki, bütün bunlar sosial sferada yeni təşəbbüslərin ortaya qoyulmasına imkan yaradır. Yadımızdadır ki, hələ ötən ilin prezident seçkilərindən sonra cənab İlham Əliyevin Milli Məclisdə etdiyi çıxışında islahatların davam etdiriləcəyini, xüsusən sosial sahədə mühüm qərarların qəbul ediləcəyini açıqlamışdı. Ötən ay Prezident İlham Əliyevin imzaladığı 10-dan artıq fərman və sərəncam göstərir ki, dövlət başçısının bir müddət əvvəl elan etdiyi sosial prioritetlər üzrə son dərəcə mükəmməl sosial paket hazırlanıb. Və burada cəmiyyətin demək olar ki, bütün təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı məsələlərin yer alması göstərir ki, cənab Prezident hər bir vətəndaşın rihafının daha da yaxşılaşdırılmasını diqqət mərkəzində saxlayır.

Fevralın 25-də keçirdiyi müşavirədə bu barədə danışan Prezident İlham Əliyev bir daha vətəndaşların sosial rifahının yaxşılaşdırılmasının ən başlıca vəzifə olduğunu dedi və 2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan etdi. Ötən ay minimum əməkhaqqının məbləğinin 50 manat artırılaraq 180 manata çatdırılması, əmək pensiyaların minimum məbləğinin 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılması, təqribən 100 minə yaxın tələbənin təqaüdünün artırılması, məcburi köçkünlər üçün sosial müavinətin 50 faiz artırılması, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata qaldırılması, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min vahid artırılması göstərir ki, 2019-cü il həqiqətən, fərqli bir ildir. Bir qədər əvvəl, yanvar ayında isə şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyən edildi.

Cənab Prezidentin sosial məsələlərlə bağlı addımları bununla bitmir və fevralın 25-də imzalanan "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam 580 minə yaxın vətəndaşı əhatə etdiyi üçün son dərəcə mühüm sosial təşəbbüs kimi yadda qaldı. Sərəncama uyğun olaraq, indiyədək müəyyən olunmuş bütün sosial müavinətlərin məbləği əhəmiyyətli dərəcədə artırıldı.

Respublikada aparılan sosial siyasətin daha geniş spektrdə sosial məsələlərin həllini əhatə etdiyini və bununla cəmiyyətin rifahında daha önəmli rola malik olduğunu, eyni zamanda ölkədə sosial ədalətin tam təminini təsdiq edən tədbirlərin davamı kimi problemli kreditlərlə bağlı dövlət başçısının təşəbbüsünü göstərmək olar. 2015-ci ildə baş vermiş devalvasiyadan sonra yaranmış bu məsələ banklardan dollar hesabı ilə kredit götürmüş vətəndaşları xüsusilə narahat edirdi. Çünki devalvasiyadan sonra onlar dolların qiymətinin yüksəlməsinə görə artıq faiz ödəmək məcburiyyətində qalmışdılar. Lakin Prezident İlham Əliyev onların bütün narahatçılıqlarına son qoydu. Belə ki, dövlət başçısının fevralın 28-də imzaladığı müvafiq fərmanla baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisi dövlətin hesabına yoluna qoyulacaq, beləliklə, problemli kreditlər məsələsi dövlət dəstəyi ilə tam həll olunacaq. Bu fərmanla hətta borcunu ödəmiş vətəndaşların belə, artıq ödəmələri onların özlərinə qaytarılacaq.

Dünyanın heç bir ölkəsində vətəndaşın problemli kreditin məhz dövlətin hesabına həll etdiyini görmək mümkün deyil. Lakin Azərbaycan Prezidenti bunu da etdi. Çünki cənab İlham Əliyev üçün ən mühüm prioritetlərdən biri vətəndaşının yüksək sosial rifahının təmin edilməsi, onun xoş ovqat və əhval-ruhiyyədə yaşamasıdır. Unutmalı deyilik ki, Prezident İlham Əliyev indiyədək buna bənzər digər problemləri də böyük müdrikliklə həll edib. Məsələn, ölkəmizdə sovet vaxtından qalmış əmanətlərə bütün MDB məkanında ən qısa müddət ərzində və ən yüksək əmsalla kompensasiya verilməsini misal göstərmək olar. Təxminən 7 il əvvəl ölkəmizdə bu problemə də son qoyuldu və vətəndaşlar vaxtilə banklarda qalmış və dəyərdən düşmüş əmanətlərini hazırkı maliyyə şərtləri əmsalında geri aldılar.

Birmənalı demək olar ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş fərman və sərəncamlar əhatə dairəsinə görə sözün əsl mənasında, inqilabi qərarlardır. Bütün bu işlərin 2019-cu ildən etibarən geniş şəkildə reallaşması bir tərəfdən Azərbaycan hökumətinin sosialyönümlü fəaliyyətini əks etdirirsə, digər tərəfdən cənab İlham Əliyevin iqtisadi islahatlarının öz bəhrəsini verdiyini sübuta yetirir.

Bütövlükdə, Prezident İlham Əliyevin sosial məsələləri əhatə edən fərman və sərəncamları 3 milyona yaxın vətəndaşı əhatə edir. Bu isə milyardlarla manat əlavə vəsait deməkdir. Bütün bunlar göstərir ki, Azərbaycan həqiqətən, sosial dövlətdir. Təbii ki, iqtisadi imkanlar yüksəldikcə ölkədə insan amilinə xidmət edən, vətəndaşların daha yüksək sosial standartlar səviyyəsində yaşamasına yol açan təşəbbüslərin şahidi olacağıq.

***"Azərbaycan"***

# Vətəndaş maraqlarının müdafiəçisi

## Prezident İlham Əliyevin sosial məsələlərlə bağlı fərman və sərəncamları ictimaiyyətin dərin rəğbətinə səbəb olub

**Son illərin iqtisadi mənzərəsi Azərbaycanın qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu nümayiş etdirməklə yanaşı, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun praktikada özünü tam doğrultduğunu ortaya qoydu. Bu baxımdan ötən 15 ildə qazanılmış nailiyyətlər bütün ölkə rəhbərliyinin inkişaf kursunun təməlində dərindən düşünülmüş elmi-iqtisadi əsasların, dövlətin və xalqın maraqlarının təmin olunmasının dayandığını göstərir.**



### Sosial rifah daim diqqət mərkəzində olacaq

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində dayanan əsas məsələlərdən biri insan amilidir. İnsanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir iqtisadi inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. Bu mənada vətəndaşların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin və səviyyəsinin dəyişdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir.

Son 15 ilin sosial inkişaf dinamikasına nəzər salanda ardıcıl surətdə cəmiyyətimizin ayrı-ayrı üzvlərinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm addımların atıldığının şahidi oluruq. İstər insanların əməkhaqlarının yüksəldilməsi, istər pensiyaların artırılması, istərsə də aztəminatlı ailələrin sosial müdafiəsi sisteminin təkmilləşdirilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin ayrı-ayrı şaxələrini təşkil edir.

Ötən il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev diqqəti sosial məsələlərə yönəldərək dedi: *"Son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib, 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır".*

Ölkədə yoxsulluq da təxminən 50 faizdən 5,1 faizə düşüb. İşsizliyin aradan qaldırılması ilə bağlı geniş tədbirlər görülüb. Hazırda işsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Bu, dünyada ən yaxşı göstəricilərdən biridir. Bütün bu statistik faktlar göstərir ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın hərtərəfli inkişaf konsepsiyasının əsas tərkib hissələrindən biri olan sosial siyasət kursunun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dövrün tələblərinə adekvat şəkildə, həm forma, həm də məzmun etibarilə zənginləşdirilərək davam etdirilməsi əhalinin sosial müdafiəsi sahəsində və bütövlükdə ölkənin sosial həyatında böyük tarixi nailiyyətlər əldə edilməsinə gətirib çıxarıb. Elə həmin mərasimdə cənab Prezident növbəti illərdə çox ciddi islahatların aparılacağını və bütün bunların vətəndaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşacağını bəyan etdi. Keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparılırdı.

Budur, cənab İlham Əliyevin qeyd etdiyi məqamlar 2019-cu ilin əvvəlindən başlayaraq artıq real həyata vəsiqə qazanır. İlk olaraq yanvar ayında həyata keçirilən struktur islahatları deyilənləri təsdiq edir.

### İslahatların əsas hədəfləri

"2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır". Bu fikirləri Prezident İlham Əliyev fevralın 12-də "Real" televiziyasına müsahibəsində söylədi. Və elə fevral ayında imzaladığı müvafiq fərman və sərəncamlar göstərdi ki, dövlət başçısının fəaliyyətinin əsas qayəsini insan amilinin uca tutulması təşkil edir.

Öncə onu qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələrinin üzvləri ilə keçirdikləri görüş bu ilin ən yaddaqalan və cəmiyyətimizin ovqatını yüksəldən bir hadisə oldu. Elə həmin görüş göstərdi ki, bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılacaq. Həmin görüşdən sonra dövlət başçısının Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlərlə bağlı fərmanına əsasən, birdəfəlik ödəmə alan şəhid ailələrinin əhatə dairəsi daha da genişləndi. Bu fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir.

Bundan iki ay sonra Prezident İlham Əliyev şəhid ailəsinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə növbəti fərman imzaladı. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" fərmana əsasən, şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyən edildi.

Geridə qoyduğumuz fevral ayı isə sosial sferada qəbul edilən inqilabi qərarlar dövrü kimi yadda qaldı. Belə ki, fevral ayında Prezident İlham Əliyev tərəfindən təkcə sosial məsələləri əhatə edən bir neçə fərman və sərəncamlar imzalaması möhtəşəm sosial islahatlar paketindən xəbər verir.

Dövlət başçısının imzaladığı sərəncamlardan biri minimum əməkhaqqının artırılması ilə bağlıdır. Fevralın 8-də imzalanan "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncamla ölkə üzrə minimum əməkhaqqı 50 manat, yəni, təxminən 38,5 faiz artırılaraq 180 manata çatdırıldı. Bu qərar artıq mart ayının 1-dən qüvvədədir. Qeyd edim ki, bu, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Bunlar dövlət sektorunda işləyən 450 min nəfərin aylıq əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artımda özünü göstərəcək. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat əlavə vəsait yönəldiləcək.

Prezident İlham Əliyevin fevralın 14-də imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamlar da sosial islahatlar paketinin mühüm tərkib hissələridir. Fərmana əsasən, ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 210 manata çatdırıldı.

"Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sənədə əsasən ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırılacaq. Digər sərəncama əsasən isə doktorantura pilləsi, yəni, elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manat, ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə 170 manat ödəniləcək. Həmçinin magistratura, bakalavriat və orta ixtisas səviyyəsi üzrə akademik göstəriciləri olanların, peşə təhsili müəssisələrinin tələbələrinin də təqaüdü yüksəldi. Bu sərəncamlara əsasən, təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu sənədlər təkcə bir gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı deyil, bütövlükdə Azərbaycan dövlətinin, ölkə rəhbərinin öz vətəndaşlarına olan insani münasibətinin nəticəsidir.

Prezidentin fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanla isə təxminən 400 çoxmənzilli binanın sənədləşməsi məsələsində yaranmış problemlərə son qoyulacaq. Bu addım da əhalinin və həm də iqtisadi maraqların müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Fevralın 21-də imzaladığı növbəti fərmanla Əfqanıstan veteranları üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il martın 1-dən 300 manat müəyyən edildi.

### Əlavə gəlirlər ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəldilir

Fevralın 25-də Prezidentin yanında keçirilən müşavirə iqtisadi və sosial məsələlərə həsr olunmuşdu. Bu müşavirə ilk növbədə İlham Əliyevin öz vətəndaşının sosial rifahının daha da yaxşılaşdırılmasına olan həssas diqqətinin növbəti təcəssümü kimi yadda qaldı. Eyni zamanda, bir daha göründü ki, dövlətin sosial siyasəti ardıcıl və sistemlidir. Bəli, reallıq ondan ibarətdir ki, Azərbaycanda son illərdə aparılan mükəmməl iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarımızın əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Müşavirədə qeyd olunduğu kimi, təkcə ilin birinci ayında daxilolmalar kəskin şəkildə artmışdır. Vergi orqanları plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə plandan əlavə 20 milyon manatdan çox vəsait toplamışlar və ümumi daxilolmalar 105 milyon manat artmışdır.

Cənab Prezident ilk növbədə bu vəsaitləri məhz sosial sferaya cəlb edir. Dövlət başçısının dediyi kimi bu, imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək.

Elə həmin gün dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti mühüm addım kimi tarixə düşdü.

Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur.

Həmçinin sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata çatdırılacaq.

Sərəncam eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaradıb. Belə ki, sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi də yer alıb. Dövlət başçısının yeni sərəncamı ilə müharibə əlillərinə Prezident təqaüdünün məbləğinin I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılması təmin ediləcək.

Sərəncam ümumilikdə, 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.

Daha bir mühüm sosial addım minimum əmək pensiyalarının artırılmasıdır. Bu, 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq.

Prezidentin 25 fevral müşavirəsində toxunduğu mühüm məsələlərdən biri problemli kreditlər barədə idi. Qeyd edək ki, bir neçə il əvvəl maliyyə bazarlarında baş vermiş məlum devalvasiyadan sonra dollar hesabı ilə banklardan götürülən kreditlərin ödənməsində çətinliklər yaranıb. Budur, İlham Əliyevin vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial siyasəti bu məsələdə də vətəndaşın imdadına çatır. "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" 28 fevral tarixli fərmana əsasən bu sahədə əhalini narahat edən problemlərə birdəfəlik son qoyulacaq. Bu fərmanın təxminən 800 mindən artıq vətəndaşı əhatə etdiyini nəzərə alsaq, onun son dərəcə mühüm sosial addım olduğunu görərik.

*Bütövlükdə Prezident İlham Əliyevin ötən ay qəbul etdiyi sosial qərarlar təxminən 3 milyon vətəndaşı əhatə edir. Maddi tərəfinə də gəldikdə isə bunlar milyardlarla manat deməkdir. Bu da ondan xəbər verir ki, dövlət başçısı üçün əsas prioritetlərdən biri məhz vətəndaşların sosial rifahının gücləndirilməsi, onları narahat edən problemlərə son qoyulmasıdır. Ən əsası, bütün bunlar onun təsdiqidir ki, Prezident İlham Əliyev vətəndaş maraqlarının əsl müdafiəçisidir.*

**Nəsib MƏHƏMƏLİYEV,**
**Milli Məclisin deputatı**

# AMEA-nın həqiqi üzvü Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyasının akademiki (xarici üzvü) seçilib

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti akademik Nərgiz Paşayeva fevralın 27-də Rusiya Təhsil Akademiyasının (RTA) üzvlərinin ümumi yığıncağında M.V.Lomonosov adına MDU-nun rektoru, akademik V.Sadovniçinin təqdimatına əsasən yekdilliklə RTA-nın akademiki (xarici üzvü) seçilib.



http://rusacademedu.ru/news/v-rossijskoj-akademii-obrazovaniya-proshlo-obshhee-sobranie-chlenov-rao/

AZƏRTAC xəbər verir ki, Rusiya Təhsil Akademiyasının yeni, o cümlədən xarici üzvləri maksimum dərəcədə şəffaf prosedur əsasında - gizli səsvermə yolu ilə, səslərin hesablanması üçün RF Mərkəzi Seçki Komissiyası tərəfindən keçirilən ümumrusiya seçkilərində istifadə edilən qaydalara analoji olan elektron vasitələr (KOİB) tətbiq edilməklə seçilib. Yığıncağa qatılan akademiya üzvlərinin hamısı səsvermədə iştirak edib. Ümumi yığıncaqda 200-ə yaxın görkəmli rusiyalı və əcnəbi alim, akademiyanın üzvləri, RF Prezidenti Administrasiyasının, RF hökumətinin, federal nazirlik və idarələrin, RF Dövlət Dumasının nümayəndələri, RTA Qəyyumlar Şurasının üzvləri, görkəmli elm və dövlət xadimləri iştirak ediblər.

Yığıncaqda "Təhsil" və "Elm" milli layihələrinin həyata keçirilməsində Rusiya Təhsil Akademiyasının iştirakı, habelə RTA-nın inkişafına dair perspektiv planlar və ən yaxın genişmiqyaslı layihələr müzakirə edilib.

Yığıncağın ikinci hissəsində akademiyanın yeni üzvlərinin və onun idarəetmə orqanlarının nümayəndələrinin seçkiləri keçirilib.

Professor Nərgiz Paşayeva ilə yanaşı, Li-Yanki Xannelora (Almaniya Federativ Respublikası və İsveçrə Konfederasiyasının vətəndaşı) və Fransisko Pons (İspaniya Krallığı və İsveçrə Konfederasiyasının vətəndaşı) da RTA-nın xarici üzvləri seçiliblər.

# Diplomatik korpusun nümayəndələri vergi qanunvericiliyində edilmiş dəyişikliklər barədə məlumatlandırılıb

Martın 4-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının dəstəyi, Xarici İşlər və Vergilər nazirliklərinin birgə təşkilatçılığı ilə xarici ölkələrin Azərbaycanda akkreditə edilmiş fövqəladə və səlahiyyətli səfirləri, müvəqqəti işlər vəkilləri və diplomatik korpusun nümayəndələri ilə görüş keçirilib.




AZƏRTAC xəbər verir ki, görüşdə diplomatik korpus nümayəndələri vergi sistemində aparılan islahatlar və vergi qanunvericiliyinə edilmiş son dəyişikliklər barədə məlumatlandırılıb.

Tədbirdə çıxış edən vergilər naziri Mikayıl Cabbarov ölkədə aparılan iqtisadi islahatlar, xarici investorlar üçün yaradılmış əlverişli biznes mühiti, vergi islahatları, onların məqsəd və hədəfləri barədə tədbir iştirakçılarını məlumatlandırıb. Qeyd edib ki, qarşıdakı dövrdə ölkə iqtisadiyyatının qarşısında duran əsas iqtisadi vəzifələr ixracyönümlü qeyri-neft sənayesinin yaradılması, xammala bağlı olmayan inkişaf mexanizmlərinin qurulması, biznes mühitinin və sahibkarlığın inkişafının stimullaşdırılmasıdır. Bu hədəflərə nail olmaq üçün vergi qanunvericiliyində, vergi inzibatçılığında və bilavasitə idarəetmə sistemində köklü islahatlar aparılır.

Nazir 2018-ci ildə dövlət-biznes münasibətlərində yeni yanaşmaların sərgiləndiyini, "kölgə iqtisadiyyatı"nın miqyaslarının azaldılması üçün yeni iqtisadi mexanizmlərin tətbiq edildiyini diqqətə çatdırıb. M.Cabbarov vergi islahatlarının əsas prinsipləri sırasında proqnozlaşdırılmasının mümkünlüyünü, şəffaflıq və bərabərliyə əsaslanmasını qeyd edib.

O, islahatların biznesin könüllü əməletmə səviyyəsinin və fiskal gəlirlərin artmasına müsbət təsir göstərdiyini də vurğulayıb. Vergi qanunvericiliyinə edilmiş son dəyişikliklərin ölkədə sahibkarlıq və investisiya mühitinin cəlbediciliyinin artırılması, biznes aparılması üçün mövcud şərtlərin daha da yaxşılaşdırılması məqsədini daşıdığı qeyd edilib.

Sonra Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı tədbir iştirakçıları üçün geniş təqdimat keçirilib, diplomatik korpus nümayəndələrinin sualları cavablandırılıb.

# *Mark ŞNAYER:* "Azərbaycan nümunəvi dinlərarası dialoq, birgəyaşayış modeli sərgiləyir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı martın 4-də ölkəmizdə səfərdə olan ABŞ-ın yəhudi və yevangelist xristian icmasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, dövlət komitəsinin sədri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, tolerantlıq mühiti, DQİDK-nın fəaliyyət istiqamətləri barədə danışıb. Bildirib ki, bu gün dinlər və sivilizasiyalararası dialoqun baş tutması üçün əsas şərtə çevrilən və mütərəqqi dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq və multikulturalizm Azərbaycan xalqının əsrlərboyu formalaşan və çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti və mədəniyyəti ümummilli lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənib, bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrilib. Azərbaycanda dini etiqad azadlığının qanunla təsbit edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı ölkəmizdə 32-si qeyri-islam təmayüllü olmaqla 908 dini qurumun dövlət qeydiyyatından keçdiyini deyib. O, formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər sayəsində respublikamızda 14 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib. Mütəmadi olaraq müxtəlif dinlərə məxsus ibadətgahların inşa və bərpa edildiyini, dini icmalara maliyyə yardımları ayrıldığını deyib.

Prezident İlham Əliyevin Azərbaycanda 2016-cı ili "Multikulturalizm ili", 2017-ci ili isə "İslam həmrəyliyi ili" elan etdiyini bildirən komitə sədri Qafqaz Müsəlmanları İdarəsi ilə birgə müxtəlif yerli və beynəlxalq tədbirlər təşkil olunduğunu qeyd edib. Bu istiqamətdəki işin davamı olaraq bu gün Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransın əhəmiyyətinə toxunan komitə sədri Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini bildirib.

Görüş zamanı Azərbaycan həqiqətləri barədə danışan Mübariz Qurbanlı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini, bir qisminin isə erməniləşdirildiyini diqqətə çatdırıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer vurğulayıb ki, Azərbaycan nümunəvi dinlərarası dialoq, birgəyaşayış modeli sərgiləyir və bu, təqdirəlayiq haldır. O, bu fikirləri Prezident İlham Əliyevlə görüşdə məmnuniyyətlə dilə gətirdiyini qeyd edib. M.Şnayer bu mühitin qorunması, təbliğ və təşviq edilməsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xüsusi rolu olduğunu deyib.

İqls Vinqs yevangelik təşkilatının icraçı direktoru, yepiskop Robert Störns Azərbaycanda mövcud olan dinlərarası harmoniyanın, qarşılıqlı etimad mühitinin, bu sahədə əldə edilən nailiyyətlərin artıq bütün dünyada etiraf edilən həqiqət olduğunu bildirib.

Sonda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim olunub.

# Hədəf tədqiqat universitetidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", həmin strategiyanın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı", eləcə də "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" universitetlərin inkişaf istiqamətlərini müəyyən etmişdir. Bu istiqamətlərdən biri universitetlərin elm, tədqiqat mərkəzinə çevrilməsidir. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) də tədqiqat universitetinə transformasiya edilməyi hədəfləyir.



Bu məqsədə nail olmaq üçün hansı işlər görülmüşdür? İlk olaraq universitetlərdə səmərəli elmi tədqiqatların təşkili məsələsini müzakirə etmək məqsədilə Nobel mükafatı laureatı Əziz Sancarın iştirakı ilə beynəlxalq konfrans düzənləndi. Konfransda başda Azərbaycan Respublikasının təhsil naziri olmaqla "Clarivate Analytics" nümayəndələri çoxlu xarici mütəxəssislərlə birlikdə bu istiqamətdə ən aktual məsələlərə aydınlıq gətirildi.

Regionda ilk dəfə müəllimlərin reytinq sistemi tətbiq edildi və həmin reytinqdə elmi tədqiqatların payı əvvəlki 40 faizdən hazırda 70 faizə qədər yüksəldildi.

Nüfuzlu, impaktı yüksək olan jurnallarda çap edilmiş məqalələrə görə 4000 manata qədər qonorar vermək haqqında qərar verildi. Məlumat üçün bildirək ki, yalnız 2018-ci ildə 2017-ci illə müqayisədə belə qonorarın həcmi 34 dəfə artmışdır.

"Clarivate Analytics" ekspertləri tərəfindən UNEC müəllimlərinə nüfuzlu jurnallarda məqalə çap etdirilməsi yollarına dair iki təlim təşkil edildi. Ölkədə ilk dəfə TEDx və tələbələr arasında elmin cəlbediciliyini artırmaq üçün Science Slam konfransı keçirildi. Gənc alimlər şurası yaradıldı, UNEC Ekspert jurnalı təsis edildi, Diskurs.az virtual iqtisadi forumu təşkil edildi.

UNEC-də 22 tədqiqat mərkəzi yaradıldı və həmin mərkəzlər UNEC-də tədqiqat fəaliyyətinin əsası kimi görünür. Həmin tədqiqat mərkəzlərinin bəzi nailiyyətlərini də qeyd etmək yerinə düşərdi. "UNEC İnkişaf iqtisadiyyatı" Tədqiqat Mərkəzi dünya iqtisad elmi tarixində ilk dəfə Azərilight neftinin dünya bazar qiymətinin proqnozlaşdırılması modelini qurmuşdur. Bu layihə SOCAR-ın sifarişi əsasında yerinə yetirilmişdir. Qürurla demək istəyirəm ki, bu layihənin nəticəsi kimi hazırlanmış monoqrafiya "Springer" nəşriyyatı tərəfindən çapa qəbul edilmiş və martın 29-da işıq üzü görəcək. Həmin kitab artıq Springer və Amazonda sifarişlər üçün yerləşdirilmişdir.

Başqa bir tədqiqat mərkəzi "UNEC Empirik tədqiqatlar mərkəzi"nin tələbələrlə birlikdə apardığı tədqiqatın nəticələri Scopus indeksli jurnalda nəşr edilmişdir. Bu, UNEC tələbələrinin nüfuzlu və indeksli jurnalda məqaləsinin nəşri baxımından UNEC üçün bir yenilik və ciddi uğurdur.

2017-ci ildə UNEC Tədqiqat Fondu təsis edildi və bu fond tərəfindən bir sıra ciddi tədqiqat layihəsi həyata keçirilmişdir.

Bir necə gün əvvəl Web of Science və Scopus indeksi olan beynəlxalq "ESD" konfransa UNEC evsahibliyi etmiş və həmin konfransa UNEC əməkdaşlarının 147 məqaləsi qəbul edildi ki, bu da böyük uğur kimi qəbul edilə bilər.

Tərkibində dörd şöbə olan UNEC elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti və ilk dəfə olaraq Elmmetriya şöbəsi yaradılmışdır.

2030-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin 100 yaşı tamam olacaq və bu tarixlə bağlı əsas hədəfləri özündə ehtiva edən UNEC-100 strategiyası qəbul edilmişdir. Həmin strategiyaya uyğun olaraq UNEC Beynəlxalq Beyin Mərkəzinin yaradılmasını Scopus indeksli UNEC beynəlxalq konfransın təşkil edilməsini ortamüddətli dövrdə qarşıda duran əsas vəzifə kimi müəyyən edilmişdir.

UNEC müəllimlərinin ingilis dilində elmi məqalələr yazmaq bacarığını formalaşdırmaq məqsədilə British Counsil ilə bağlanmış müqaviləyə əsasən 25 müəllim üçün "Akademik ingilis dili" kursuna 10 gün əvvəl start verilmişdir.

Keçən dövr ərzində görülmüş işlərin nəticəsi nə oldu?

- 2019-cu ilin yanvarında açıqlanan "Google Akademik" istinadlara görə UNEC ardıcıl olaraq ikinci dəfə Azərbaycanda universitetlər arasında sitatların sayına görə birinci yerə yüksəldi.

Sonuncu QS inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya reytinginə əsasən UNEC Akademik reputasiya göstəricisinə əsasən regionun 101-ci ən yaxşı universiteti seçildi.

Web of Science-də çap olunmuş məqalələrin sayı 2014-cü illə müqayisədə 2018-ci ildə 9 dəfə artmışdır.

Sevindiricidir ki, təkcə 2018-ci ildə Web of Science-ə daxil olan mənbələrdə UNEC müəllimlərinin çap olunmuş məqalələrinin sayı 1992-2014-cü illəri əhatə edən 22 ildə çap olunmuş məqalələrin sayından çoxdur.

Nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artmasına və dünya elm məkanına uğurla inteqrasiya etdiyinə görə "Clarivate Analytics" UNEC-i "Web of Science Awards - 2018" və "Most progressive universities in Web of Science for the last 3 years" mükafatları ilə təltif edilmişdir. Belə ki, "Clarivate Analytics"-in məlumatına əsasən UNEC-in 1991-2018-ci illərdə "Web of Science"-ə daxil edilən elmi əsərlərinin 56 faizi məhz son 3 ilin payına düşür.

Bütün bu uğurlara baxmayaraq elmi fəaliyyət sahəsində vəziyyət universitetimizin hədəflərindən uzaqdır və UNEC-in mövcud potensialına cavab vermir.

UNEC-in zəif yerlərini aşkar etməyi öyrənməli, etiraf edəcək qədər güclü olmalı və zəif yerlərinin gələcəkdə güclü tərəfinə çevirməyi bacarmaq üçün ciddi işlər davam etdirilməlidir. Bu gün UNEC-də hələ də aradan qaldırıla bilməyən zəif yerlər nədir?

QS beynəlxalq reytinq agentliyinin hesabatına görə UNEC-in ən zəif yerlərindən biri elmi tədqiqat və araşdırmalar olduğu qeyd edilir. QS dünya universitetlərinin reytinqində 20 faiz və regional reytinqdə 5 faiz çəkisi olan "məqalələrə görə sitat sayı" göstəricisi üzrə UNEC hələ də belə bal əldə edə bilmir. Bunun əsas səbəbi SCOPUS-da bu göstərici üzrə son 5 ildə UNEC-in ən azı 150 məqaləsinin olmamasıdır. Bununla bağlı maraqlı fakt: 2014-2018-ci illəri əhatə edən son 5 ildə Web of Sciencedə universitetimizin əməkdaşlarının məqalələrinin sayı 55 olmuşdur. Bu göstərici 2009-2013-cü illəri əhatə edən 5 ildə çap olunan məqalələrin sayından 5 dəfə, 2004-2008-ci illəri əhatə edən daha əvvəlki dövrdə çap olunan məqalələrin sayından 7 dəfə çox olmuşdur. Hesab edirəm ki, 82-si elmlər doktoru, 441-i fəlsəfə doktoru olmaqla 818 müəllimin çalışdığı UNEC-də 5 il ərzində 150 məqalənin Scopus-da çap edilə bilməməsi ciddi siqnaldır və bu, görülmüş işlərin hələ də yetərli olmadığını göstərir. Əminəm ki, universitetimizdə bu vəzifənin öhdəsindən gəlmək üçün yetərli potensial mövcuddur.

Bəllidir ki, tədqiqatçılar öz elm sahələri çərçivəsində çalışırlar. Onların işi ondan ibarətdir ki, məlum olmayanı məlum etsinlər. Tədqiqatçı kimi fəaliyyət göstərmək o deməkdir ki, elmə hələ də bəlli olmayanı aydınlaşdırmağı bacarsın. Etiraf edək ki, bir sıra "tədqiqatlar" hələ də formal xarakter daşıyır. Tanınmış Stiven Xoking deyirdi ki, "Biliyin əsas düşməni məhz bilik illüziyasıdır" və UNEC hələ də bu düşmənə qalib gələ bilməmişdir.

Bildiyimiz kimi, tədqiqatçılar təkcə öz laboratoriyalarında, tədqiqat məkanlarında dəyərli vaxtlarını yalqızlıqda, tənhalıqda keçirmirlər. Tədqiqat toplum tərəfindən aparılır və bu toplumda əqli əmək bölgüsü mövcuddur. Hər bir tədqiqatçı öz sahəsində mütəxəssisdir və elmi bilik bütövlükdə toplum çərçivəsində formalaşır və paylanır. Belə bölgü o demək deyil ki, hər bir tədqiqatçı ancaq ona aid olan kiçik məlumat daşıyıcısıdır və toplumun biliyi və yaxud tədqiqatının nəticəsi hər bir tədqiqatçının nəticələrinin sadə cəmidir. Əqli əmək bölgüsü o deməkdir ki, toplum ona daxil olan bütün tədqiqatçıların toplam nailiyyətlərini özündə ehtiva edir. Həqiqətdir ki, UNEC-də hələ də elm toplumunun formalaşdırılması istiqamətində görülmüş işlər gözlənilən nəticəni verməmişdir.

Bəllidir ki, tədqiqatlar sübuta əsaslanır. Sübut isə müxtəlif formada birbaşa müşahidə və yaxud məntiqi nəticə ola bilir. Ancaq təcrübə göstərir ki, tədqiqatçıların nəticələrinin böyük əksəriyyəti nə müşahidələrə, nə də ki, məntiqi nəticələrə əsaslanır. Daha çox nəticələr elm sahəsində tanınmışların elmi nüfuzuna əsaslanır. Təəssüflər ki, UNEC hələ də belələrinin nüfuzundan faydalanmağı oyrənə bilməmişdir.

Diqqəti cəlb edən digər məsələ tədqiqatlara görə konfranslar, seminar, simpoziumlarda iştirak xərclərinin ödənilməsi məsələsidir. Sirr deyil ki, bu məqsədlər üçün maliyyə vəsaitləri əsasən tədqiqatçı olmayan digər şəxslər, təşkilatlar tərəfindən ödənilə bilir. Bu və digər tədqiqatı, elmi tədbirdə iştirakı maliyyələşdirən şəxs və təşkilat əmin olmalıdırlar ki, həmin tədqiqatçının maliyyələşdirilməsi fərdi investora və yaxud daha böyük topluma fayda verə bilər. Etiraf edək ki, UNEC hələ də tədqiqatları maliyyələşdirə biləcək investorların və ya təşkilatların maraq dairəsinə düşə bilməmişdir.

Biliklərin qarşılıqlı asılılığı bu gün daha aydın görünür. Bir sıra elm sahələri o qədər sayda istiqamətləri və bilik həcmini özündə ehtiva edir ki, elmi tədqiqat aparmaq üçün zəruri olan bütün bilikləri bir alimin mənimsəməsi mümkün deyil. Bu gün tədqiqatçılar öz tədqiqatlarında digərlərindən daha çox asılıdırlar və bu müxtəlif elm sahələrini təmsil edən tədqiqatçıların əməkdaşlığını qaçılmaz edir. Bir elmi məqalənin müəlliflərinin sayı 1950-ci ildən 2014-cü ilə qədər demək olar ki, 4 dəfə artaraq 1950-ci ildəki 1,5 müəllifdən 2014-cü ildə 5,5 müəllifə qədər artmışdır. Təəssüf ki, bu gün müxtəlif elm sahələrini təmsil edən müəllim və əməkdaşların birgə tədqiqat nümunələrini UNEC-də tapmaq çətindir.

Universiteti ali təhsil müəssisəsi kimi digər təhsil müəssisələrindən fərqləndirən əsas cəhət tədrislə yanaşı, universitetlərdə tədqiqatların aparılmasıdır. Tədqiqat prosesinə təhsilalanlar (bakalavr və magistrlər) cəlb edilməyənə qədər ciddi nailiyyət mümkünsüz görünür. UNEC-də təhsilalanların birgə elmi tədqiqatlara cəlb edilməsi və təqribən 20 min tələbənin, gənc beyinin potensialının reallaşdırılması üçün görülmüş işlər hələ də öz nəticəsini verməmişdir.

Yuxarıda qeyd edilənləri əsas tutaraq UNEC-də ciddi elmi tədqiqatlar üçün əlavə stimullar yaratmaq üçün ən qısa vaxtda aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

1. UNEC-də ancaq pedaqoji fəaliyyətlə məşğul olan müəllimləri və pedaqoji fəaliyyətlə yanaşı həm də ciddi tədqiqat aparan müəllimləri fərqləndirmək və bunun üçün obyektiv və şəffaf meyarları özündə ehtiva edən qaydaların hazırlanması vaxtı çatmışdır.

2. Nüfuzlu xarici universitetdə bir il müddətinə qədər tədqiqat aparmaq üçün dəvət almış UNEC müəllimlərinin UNEC-dəki əməkhaqqının xaricdə tədqiqat apardığı müddətdə saxlanılması məsələsi müsbət həll oluna bilər.

3. Yuxarıda qeyd edildiyi kimi, impaktı yüksək olan jurnallarda çap olunmuş məqaləyə görə UNEC-də 4000 manata qədər qonorar verilir. Bu qaydanın həm də UNEC-də təhsil alanlara - bakalavrlara, magistrlərə və doktorantlara şamil edilməsi faydalı olar.

Yekunda məlumat üçün qeyd edim ki, Prezident İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq 2018-ci il 9 apreldə imzaladığı sərəncamla mart ayının 27-si Azərbaycan Respublikasında Elm Günü elan edilmişdir. Bu sərəncamı və sərəncamdan irəli gələn vəzifələri əsas tutaraq 27 fevral-27 mart tarixində UNEC-də elm aylığı keçirilir. Bununla bağlı 27 fevralda elm aylığının açılışına həsr edilmiş konfrans keçirilmişdir. Bütövlükdə elm aylığı çərçivəsində UNEC-də 22 tədbir, o cümlədən "Yeni elm sahələri-ekonofizika", "Elm haqqında Elm", "İqtisadiyyat üzrə Nobel laureatları", "Elmi fəaliyyətin institusional sistemi", "Qeyri-müəyyənlik şəraitində makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqələrinin və vergi yükünün qiymətləndirilməsi", "Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişaf perspektivləri", "İslam maliyyəsi", "Tələbələrin elmi fəaliyyətə cəlb edilməsi" və digər maraqlı mövzulara həsr edilmiş müzakirələr keçirilir. Qeyd etmək lazımdır ki, bu konfrans Azərbaycanda ilk dəfə "Nəyi bilmirik" formatında keçirilmiş və elmi tədqiqatların təşkili, aparılması, nəticələrinin saxlanması və ötürülməsi ilə bağlı suallara aydınlıq gətirmişdir.

***Ədalət MURADOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, iqtisad elmləri doktoru, professor***

# Estoniyada Ermənistanın növbəti təxribatının qarşısı alınıb

Estoniyada keçirilən kitab sərgisində Ermənistanın həyata keçirmək istədiyi növbəti təxribatın qarşısı Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən alınıb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Estoniyanın Milli Kitabxanasında keçirilən Ermənistana dair kitab sərgisində Azərbaycanın ərazi bütövlüyünü təhrif edən yalanla dolu kitablar və xəritələr səfirliyimizin, eyni zamanda, Estoniyadakı Azərbaycan diasporunun nümayəndələrinin səyləri nəticəsində müsadirə edilib. Həmin sərgidə Azərbaycan və türk müəlliflərinin qondarma "erməni soyqırımı"nı ifşa edən kitabları da nümayiş etdirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

Ölkəmizdə həyata keçirilən islahatlar iqtisadiyyatın bütün sahələrini əhatə edir. Həmin sahələr sırasında kənd təsərrüfatı və sənaye aparıcı yer tutur. Təsadüfi deyil ki, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən IV Dövlət Proqramında da əsas hədəf kənd təsərrüfatı və sənaye sahələrinin müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsidir.

## Müasir aqrar sektor yeni texnologiyalar tələb edir



Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda aqrar sektorda görüləcək işlər barədə demişdir: “Biz kənd təsərrüfatında islahatları dərinləşdirməliyik. Kənd təsərrüfatı elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır. Biz ərzaq təhlükəsizliyi ilə bağlı bundan sonra da mütləq ciddi iş aparmalıyıq, bu, prioritet məsələdir. Məhsuldarlığın artırılması istiqamətində də işlər görülür. Hesab edirəm ki, bu, yaxın gələcəkdə özünü göstərəcək. Biz kənd təsərrüfatı məhsullarının ixracını artırmalıyıq. Düzdür, son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə artıb. Ancaq potensial da böyükdür və biz yeni bazarlara çıxmalıyıq”.

Dövlət başçısının çıxışından da aydın görünür ki, aqrar sektorda yeni texnologiyaların tətbiqinə böyük ehtiyac var. Dünya praktikası da sübut edir ki, hansı ölkədə kənd təsərrüfatında innovativ texnologiyalar tətbiq edilirsə, iqlimdən asılı olmayaraq orada məhsuldarlıq yüksək olur. Belə texnologiyalardan istifadə etməklə həm məhsuldarlığı artırmaq, həm də yığım zamanı itkinin qarşısını almaq xeyli asanlaşır.

Bu baxımdan Azərbaycanda müasir texnika və texnologiyaların daha çox tətbiq edildiyi aqroparkların yaradılması çox müsbət haldır. Hazırda ölkə üzrə 51 aqropark və iri fermer təsərrüfatının yaradılması nəzərdə tutulur. Artıq onlardan sahəsi 104 min hektar olan 17 aqropark fəaliyyət göstərir. Ümumilikdə isə bütün aqroparkların əhatə edəcəyi sahə təqribən 200 min hektara yaxın olacaq. İlkin hesablamalara görə, həmin aqroparklarda istehsal ediləcək məhsullar 800 milyon və ya 1 milyard manat civarında olacaq.

Qeyd etdiyimiz kimi, kənd təsərrüfatının inkişafında yeni texnika və texnologiyalar önəmli rol oynayır. Bu məqsədlə büdcə vəsaiti hesabına yeni texnika və texnologiyalar alınaraq fermerlərə verilir. Təkcə ötən il 5800 texnika alınıb. Həmin texnikalar dünyanın ən qabaqcıl şirkətlərinə məxsusdur.

Kənd təsərrüfatının ən böyük problemi su ilə təminatdır. Bu ehtiyacı ödəmək üçün ölkədə meliorativ tədbirlər görülür. Keçən il həmin hesaba 100 min hektar torpağa su verilib. Cari ildə isə 80 min hektara suyun verilməsi gözlənilir. Bununla yanaşı, 300 subartezian quyusu qazılacaq ki, kanalların çəkilməsi mümkün olmayan yerlər də su ilə təmin edilsin.

***Rüstəm KAMAL, “Azərbaycan”***

## Xalçaçılıq ölkə sənayesində əhəmiyyətli yer tutmağa başlayır

### Bu il daha 11 fabrikin istifadəyə verilməsi nəzərdə tutulur

**Ölkədə qeyri-neft sektoruna verilən önəm qədim tətbiqi sənət növlərindən olan xalçaçılığın inkişafını da gündəmə gətirib. Xalçaçılıq tarixən Azərbaycan xalqının həm məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətinin bariz nümunəsi olub. Son illərdə dövlət qayğısı bu sahənin ölkə sənayesində əhəmiyyətli yer almasına imkan yaradıb.**



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xalçalarımızın dünyada tanınması üçün böyük əmək sərf edib. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına salınıb.

2014-cü ildə Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə Xalça Muzeyinin yeni binası istifadəyə verilib. 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayıb.

Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdamda təzə xalça müəssisələri istifadəyə verilib. Xalçaçılığın inkişafına yönəldilən tədbirlər ardıcıl xarakter daşıyır. Təsadüfi deyil ki, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu sahədə yaxşı nəticələr qazanıldığı qeyd edilib. Prezident İlham Əliyev bu il daha 11 xalça fabrikinin istifadəyə veriləcəyini bildirərək deyib: “Bu fabriklər tam gücü ilə fəaliyyətə başlayandan sonra 5 minə yaxın insan, - onların mütləq əksəriyyəti qadınlardır, - işləyəcək. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, bizim tarixi milli sənətimiz yaşayır və yaşayacaqdır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var. Bu, ixracyönümlü məhsuldur”.

“Azərxalça”nın Azərbaycanın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən filiallarının sayı artmaqdadır. İndiyədək işə başlayan xalçaçılıq müəssisələrinin hamısı da Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

İlk filialın məhz cəbhə bölgəsində fəaliyyətə başlaması böyük məna daşıyır. Belə ki, Horadizdəki bu müəssisə Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərindən birini - Qarabağ xalçaçılıq məktəbini təmsil edir. Füzuli rayonunda belə bir sənaye ocağının yaradılması həm də dövlətin məcburi köçkünlərə qayğısından qaynaqlanır. Burada 150-dən çox işçinin məşğulluq problemi həllini tapıb. Toxucular həm Horadiz şəhərinin, həm də Füzuli rayonunun ayrı-ayrı kəndlərinin, o cümlədən hazırda işğal altında olan kəndlərinin sakinləridir.

Keçən ilin may ayında Xaçmaz, avqust ayında İsmayıllı filiallarının da açılışı olub. Xaçmaz filialının 160-dan çox işçisi var ki, onların əksəriyyəti qadındır. Burada əsasən Xaçmazın ayrı-ayrı kəndlərində yaşayan qız-gəlinlər öz məşğulluq problemlərini həll edirlər. Onlar da digər filialların toxucuları kimi, işə kor-koranə başlamayıblar, bir neçə ay “Azərxalça”nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.

Xalçaçılar müxtəlif ölçülü dəzgahlarda çalışırlar. Onlar Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində ərsəyə gələn tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük verirlər. Ümumiyyətlə, bütün filiallarda toxunan çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb.

Dövlət başçısının iştirakı ilə açılmış İsmayıllı filialında 162 nəfərin məşğulluq problemi həll edilib ki, bunlardan 150-si qadındır.

“Azərxalça”nın Ağdam filialının fəaliyyətə başlaması da mühüm hadisəyə çevrildi. Müəssisənin Quzanlı qəsəbəsində yerləşən binası toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunur. Əsasən Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Xocalı, Laçın, Şuşa və Zəngilan rayonlarının kəndlərində toxunan tarixi və orijinal Qarabağ xalça çeşniləri üstünlük təşkil edir.

Müəssisənin açılışı mərasimində Prezident İlham Əliyev xalçaçıları təbrik edərək demişdir: “Bu, sayca yeddinci fabrikdir. Proqramımızda Azərbaycanda 30 xalça fabrikinin tikilməsi nəzərdə tutulub, yeddincisi bu gün açılır. Çox şadam ki, biz Ağdam rayonunda buna nail ola bilmişik. Burada sizin üçün gözəl şərait, 150 iş yeri yaradılıb, işləyənlər də qadınlardır. Siz həm gözəl sənətimizi yaşadırsınız, həm də gözəl əsərlər yaradırsınız. Bu işlərə gənc qızlarımızı cəlb edirsiniz. Sizin fəaliyyətiniz çox yüksək qiymətə layiqdir. Ağdamın qədim xalçaçılıq məktəbi var. Burada qədim xalçalar da nümayiş etdirilir. İndi sizin də əl işləriniz göz qabağındadır”.

Xalçaçılıq müəssisələrini materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında 5 regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin inşası davam etdirilir.

Bütün bunlar o deməkdir ki, hazırda Azərbaycan xalça sənəti dirçəliş dövrünü yaşayır. Xalça istehsalının çoxalması qədim el sənətinin yaşaması, ölkənin ixrac potensialının və nəticədə qazanılan vəsaitin artması, Azərbaycan brendinin geniş şöhrət qazanması deməkdir. Bu, həm də qadınların məşğulluq probleminin həllində mühüm rol oynayır.

***Flora SADIQLI, “Azərbaycan”***

## 143 ölkədən 191,6 min turist

### Bu, yalnız yanvar ayının statistikasıdır

Dövlət Sərhəd Xidmətinin məlumatına görə, yanvar ayında Azərbaycana dünyanın 143 ölkəsindən 191,6 min və ya 2018-ci ilin eyni ayı ilə müqayisədə 2,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 29,1 faizi Gürcüstan, 11,2 faizi Türkiyə, 5,4 faizi İran, 4,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,7 faizi Ukrayna, 1,3 faizi İraq, 17,3 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi vətəndaşlığı olmayan şəxslər olmuşdur.



Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda daha sonra bildirilir ki, ölkəmizə yanvar ayında gələnlərin sayında daha çox artım Misir (4,5 dəfə), Pakistan (2 dəfə), Türkmənistan (1,7 dəfə), Hindistan (1,4 dəfə), Çin (26,5 faiz), Gürcüstan (21,9 faiz), Cənubi Koreya (15,2 faiz) vətəndaşları arasında qeydə alınmışdır. Körfəz ölkələrindən gələnlərin sayı isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,3 faiz azalaraq 28,5 min nəfər olmuşdur. Əvəzində ilin ilk ayında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 0,9 faiz artaraq 5,8 min nəfərə çatmışdır. Amma bu artım MDB ölkələrindən gələnlərin sayında müşahidə edilməmişdir. Keçmiş ittifaq respublikalarından Azərbaycana səfər edənlərin sayı 0,2 faiz azalaraq 67,2 min nəfər olmuşdur.

Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarına gəldikdə, yanvarda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə onların sayı 19,3 faiz artaraq 357,1 min nəfərə çatmışdır. Vətəndaşlarımızın 35 faizi İrana, 28 faizi Gürcüstana, 20,9 faizi Rusiya Federasiyasına, 10,2 faizi Türkiyəyə, 1,2 faizi Ukraynaya, 1,1 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,6 faizi digər ölkələrə səfər etmişdir. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 75,2, Rusiya Federasiyasına gedənlərin sayı 6,5, Gürcüstana səfər edənlərin sayı 2,5 faiz artmış, Türkiyəyə üz tutanların sayı isə 2,6 faiz azalmışdır.

## Növbəti “KOB Dostu” Cocuq Mərcanlıda yaradılacaq

Bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyəti sədrinin birinci müavini Natiq Həsənov jurnalistlərə müsahibəsində deyib.

KOB Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

O bildirib ki, bu yaxınlarda daha bir “KOB Dostu” Abşeronda fəaliyyətə başlayıb. Hazırda Masallı, Quba, Qusar, Xaçmaz, Siyəzən, Gəncə, Yevlax, Şabran, Qəbələ və Abşeronda “KOB Dostu” fəaliyyət göstərir. Növbəti mərhələdə Cocuq Mərcanlı, Şəki və Cəlilabadda da “KOB Dostu”nun yaradılması planlaşdırılır.

DEMOQRAFİYA

## Miqrasiyanın saldosu müsbət olaraq qalır

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkə əhalisinin sayı 83 min 372 nəfər və ya 0,8 faiz artaraq 2019-cu il yanvar ayının 1-i vəziyyətinə 9 milyon 981 min 457 nəfərə çatmışdır. Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir.

Cari ilin əvvəlinə ölkə əhalisinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,8 faizi Bakı şəhərində, 20,3 faizi Aran, 12,9 faizi Gəncə-Qazax, 9,4 faizi Lənkəran, 30 faizi digər iqtisadi rayonlarda yaşayır.

Əhalinin hər kvadratkilometrə düşən sıxlığı 115 nəfər təşkil etmiş və bu göstərici Naxçıvan Muxtar Respublikasında 83, Bakı şəhərində 1064, Lənkəran və Abşeron iqtisadi rayonlarının hər birində 154, Gəncə-Qazax iqtisadi rayonunda 104, Aran iqtisadi rayonunda 96, Yuxarı Qarabağ iqtisadi rayonunda 93, Quba-Xaçmaz iqtisadi rayonunda 79, Şəki-Zaqatala iqtisadi rayonunda 70, Dağlıq Şirvan iqtisadi rayonunda 52, Kəlbəcər-Laçın iqtisadi rayonunda 40 nəfər olmuşdur.

Ədliyyə Nazirlyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2018-ci ildə 138 min 982 nəfər doğulmuş körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,2 təşkil etmişdir. Körpələrdən 2752-si əkiz, 117-si üçəm doğulanlardır. Bu göstərici Dağlıq Şirvan (əhalinin hər min nəfərinə 16,3), Lənkəran, Aran və Quba-Xaçmaz (15,4), Yuxarı Qarabağ və Kəlbəcər-Laçın (14,6) iqtisadi rayonlarında ölkə səviyyəsindən yüksək olmuşdur.

Ötən il ölkədə 57 min 250 ölüm halı qeydə alınmış və ölüm səviyyəsi əhalinin hər 1000 nəfərinə 5,8 təşkil etmişdir.

Keçən il ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 62 min 484 nikah və 14 min 857 boşanma halları qeydə alınmış, əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı 1,5 olmuşdur. Nikahlar Kəlbəcər-Laçın (əhalinin hər min nəfərinə 6,8), Şəki-Zaqatala, Quba-Xaçmaz, Aran və Dağlıq Şirvan iqtisadi rayonlarında (6,7), Bakı şəhərində (6,6), boşanmalar isə Bakı şəhərində (2,1), Kəlbəcər-Laçın (2), Abşeron və Yuxarı Qarabağ iqtisadi rayonlarında (1,8) ölkə səviyyəsindən yüksək olmuşdur.

2018-ci ildə Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 3220 nəfər gələn və ölkədən 1580 nəfər gedən qeydə alınmış, miqrasiya saldosu müsbət 1640 nəfər təşkil etmişdir.

## Yaponlar Azərbaycan balına üstünlük verirlər

Ölkəmizdə “Arıçılıq haqqında” qanunun qəbul edildiyi dövrdən sonrakı 10 ildə həm arı ailələrinin sayı, həm də bal istehsalı 3,5 dəfə, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 11,1-dən 16,4-dək artmışdır.



Dövlət Statistika Komitəsi tərəfindən təşkil olunmuş statistik müşahidənin nəticələrinə görə, təkcə 2018-ci ildə 30474 təsərrüfatda mövcud olan 501 min arı ailəsindən 4993,9 ton bal, 98,6 ton mum, 9,9 ton vərəmum, 7,7 ton güləm və 400,8 kiloqram arı südü əldə edilmişdir. Balın 1 kiloqramının orta satış qiyməti 20,6, mumun - 14,2, vərəmumun - 118,4, güləmin - 71,1, arı südünün 1 qramının orta satış qiyməti 4,6 manat olmuşdur.

2018-ci ildə Azərbaycandan 71,5 min ABŞ dolları dəyərində 8,3 ton və ya 2017-ci illə müqayisədə 1,8 ton çox bal ixrac edilmişdir ki, onun da 96,4 faizi Yaponiyanın payına düşür.

“Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” Prezidentin 2018-ci il 5 mart tarixli sərəncamına əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya müəyyən edilmişdir ki, bu da ölkədə arıçılığın inkişafına öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyil ki, əvvəlki illə müqayisədə 2018-ci ildə arı ailələrinin sayı 229,3 min, bal istehsalı 1950,8 ton artmışdır. Eyni zamanda, arıçılığın inkişafı kənd yerlərində məşğulluğun təmin edilməsi və əhalinin gəlirlərinin artımı baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Müşahidə zamanı arıçılıq təsərrüfatları bu sahənin daha da inkişafı üçün dövlət tərəfindən güzəştli kreditlərin ayrılması, arıçılıq üzrə damazlıq təsərrüfatlarının və tədarük məntəqələrinin yaradılması, bal satışı yarmarkalarının mütəmadi keçirilməsi, qablaşdırılmış və satışa çıxarılmış arıçılıq məhsullarının keyfiyyətinin yoxlanılması kimi təkliflər irəli sürmüşlər.

## Tankerlər Dübəndiyə yan alır...







Yataqlarda hasil olunan neft Dübəndi Neft Terminalına çatdırılır. Bu, SOCAR-ın Neft Kəmərləri İdarəsinin struktur vahidlərindən biridir.

Neft burada qəbul edilir, emal zavodlarına göndərilir, eləcə də şimal istiqamətində nəql olunur. Terminal həmçinin neft və neft məhsullarının tranzit nəqlini həyata keçirir.

Dübəndi Neft Terminalının fəaliyyətinin əsas istiqaməti texnoloji iş rejiminə ciddi riayət olunmaqla neftin nəqlinin təmin edilməsindən ibarətdir. Terminalın işinə həmçinin neftin qəbulu, saxlanılması və nəqlini həyata keçirən obyekt, qurğu və avadanlıqların əsaslı təmiri, yenidənqurma işlərinin yerinə yetirilməsi daxildir.

Yaradılmış infrastruktur terminala iritutumlu tankerlərin yan almasına və bir neçə əməliyyatın eyni vaxtda yerinə yetirilməsinə imkan verir.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR, “Azərbaycan”***

## Geoloqlar vəsaitdən korluq çəkmirlər

Ötən il ölkədə yerinə yetirilmiş geoloji-kəşfiyyat işlərinə 35,8 milyon manat və ya 2017-ci illə müqayisədə 10,9 faiz çox vəsait sərf olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, geoloji-kəşfiyyat işlərinə xərclənmiş vəsaitin 82,4 faizi (29,5 milyon manatı) qeyri-neft ehtiyatlarının kəşfiyyatına yönəldilmişdir.

2017-ci illə müqayisədə ötən il regional geoloji-geofiziki işlərə 9,3, əlvan metalların kəşfiyyatına 7,7, radioaktiv metalların kəşfiyyatına 6,1, qara metalların kəşfiyyatına 5, hidrogeoloji işlərə 4,4, nəcib metalların kəşfiyyatına 4,3 faiz çox vəsait sərf edilmişdir.

# REGİONLAR








Həyata keçirilən iqtisadi islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə yüksək nailiyyətlər əldə edir. Bu uğurlardan Tovuz rayonuna da kifayət qədər pay düşüb. Dövlət başçısının Tovuza dəfələrlə səfər etməsi, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı sərəncamlar imzalanması və həmin sərəncamlara uyğun həyata keçirilən tədbirlər rayonun simasını büsbütün dəyişib. Rayon iqtisadiyyatının əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi təkcə keçən il əvvəlki ilə nisbətən 5,9 faiz artaraq 414,3 milyon manat olmuşdur.

## Bütün imkanlar hərəkətə gətirilir

Qeyri-neft sektorunun aparıcı sahəsi kimi aqrar sektorun inkişafına göstərilən diqqətin nəticəsində 190,7 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Təkcə ötən il rayonda 144,4 min ton kartof istehsal olunmuşdur ki, bu da fermerlərə xeyli gəlir gətirmişdir. İstehsal edilən kartofun bir hissəsi istixanalarda yetişdirilmiş və bundan 3,8 milyon manat qazanc götürülmüşdür. Ümumiyyətlə, rayonda kənd təsərrüfatının bütün sahələrində uğurlu göstəricilərə nail olunmuşdur. 1279 hektar sahədə tərəvəz əkilmiş, sahələrdən 26 min 297 ton məhsul götürülmüşdür. O cümlədən, 9906 ton yerkökü istehsal olunmuş və fermerlər bundan 3,5 milyon manat gəlir əldə etmişlər. İqtisadi səmərəliyi ilə yanaşı, əməktutumlu sahə kimi üzümçülüyün inkişafı da diqqətdə saxlanılmışdır. Üzüm bağlarının ümumi sahəsi 725 hektara çatdırılmışdır. Bar verən bağlardan 12 min 96 ton üzüm yığılmışdır. Məhsuldarlıq əvvəlki illərə nisbətən 35 sentner artaraq 202 sentnerə yüksəlmişdir.

Meyvə bağlarının genişləndirilməsi istiqamətində də xeyli iş görülmüşdür. Hazırda rayon ərazisində 1324 hektar meyvə bağı var. Keçən il həmin bağlardan 17,6 min ton məhsul götürülmüşdür ki, bu da əvvəlki ildəkindən 1652 ton çoxdur. Meyvə bağlarında daha çox gəlir götürən torpaq sahibləri bağların sahəsini genişləndirmək üçün tədbirlər görürlər. Son illər Alakol, Düz Qırıqlı, Aşağı Quşçu kəndlərində, eləcə də Qovlar şəhərində meyvə bağlarının genişləndirilməsinə maraq xeyli artıb. Keçən il bu ərazilərdə 12 hektar yeni meyvə bağı salınmışdır.

Rayonda kənd təsərrüfatının ənənəvi sahələri də ildən-ilə inkişaf edir. Məsələn, keçən il 9 ton 781 kiloqram barama istehsal edilmişdir. Bu da əvvəlki ildəkindən 2 min 900 kiloqram çoxdur. Rayonda baramaçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu gəlirli sahənin yaxın gələcəkdə daha da genişləndirilməsinə imkan verəcək. Son iki ildə rayonda 26 min tut tingləri əkilmişdir. Ötən il tütünçülükdə də müsbət nəticələr əldə edilmişdir. 50 hektar sahədən 53,3 ton quru tütün tədarük olunmuşdur. Bu, əvvəlki ildəkindən 3,2 ton çoxdur.





Fermerlər keçən il, həmçinin 35,5 min ton şəkər çuğunduru istehsal etmişlər. Onu da qeyd edək ki, keçən il şəkər çuğunduru, tütün və barama istehsalına görə istehsalçılara ümumilikdə 191,6 min, bitkiçilik sahəsində çalışan 14,5 min subyektə yanacaq və motor yağlarına görə 1,5 milyon manat subsidiya ödənilmişdir. Bu dövrdə lizinq yolu ilə əhaliyə güzəştli qiymətlərlə 5923 ton mineral gübrələr satılmışdır.

Rayonda heyvandarlıq məhsulları istehsalında da nəzərə çarpacaq dərəcədə artım qeydə alınmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün keçən il fermerlərə 19 baş cins mal-qara satılmış, süni yolla mayalanma yolu ilə 419 baş bala alınmışdır. Hazırda rayonda heyvandarlığın inkişafı istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir. Rayonda heyvandarlığın daha da inkişaf etdirilməsi məqsədilə 2017-ci ildə 1500 başlıq Aqroparkın tikintisinə başlanılmışdır. Aqroparkın bu il istifadəyə verilməsi nəzərdə tutulub.

Arıçılığın inkişafı sahəsində də uğurlu göstəricilərə nail olunmuşdur. Belə ki, Prezidentin arıçılığın inkişafının stimullaşdırılması haqqında sərəncamından sonra rayonda arı ailələrinin sayı əvvəlki illə müqayisədə iki dəfəyədək artmışdır. Nəticədə bal istehsalı dəfələrlə çoxalmış, 9 min arı ailəsinə görə arıçılara 90 min manat subsidiya verilmişdir.

Son illər rayon iqtisadiyyatına sərmayə qoyan iş adamlarının sayı da xeyli artmışdır. Təkcə keçən il biznes fəaliyyəti ilə məşğul olanlar rayonda müxtəlif sahələrə 62,1 milyon manat sərmayə yatırmışlar ki, bu da əvvəlki ildəkində, 91,2 faiz çoxdur. İnvestisiyaların 63,1 faizi dövlət mülkiyyətinə, qalanı qeyri-dövlət sektoruna yatırılmışdır. Nəticədə 1764 yeni iş yeri açılmışdır ki, bunun da 1059-u daimidir.



Ötən il Tovuzçay su anbarı üzərində "Ağdağ" adlanan əraziyə və Yuxarı Öysüzlü kəndinə su verilməsi üçün ikinci pillə nasos stansiyasının quraşdırılması başa çatdırılmış, 12 subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Eləcə də Əlimərdanlı, Xatınlı, Qaraxanlı, Qədirli və Cilovdarlı kəndlərinin su təminatı ilə bağlı görülən işlər yekunlaşmışdır. Tovuz şəhəri əhalisinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində başlanan işlər isə davam edir.

Rayonda yol infrastrukturu da yenilənir. 10 mindən çox əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən 31 kilometrlik Əsrik Cırdaxan-Kirən-Baqqallı kəndlərarası avtomobil yolunun tikintisində son tamamlama işləri görülür. Yolun 19,5 kilometrinə asfalt örtük salınmış, qalan hissəsi isə qum-çınqıl örtüyü ilə təmir olunmuşdur.

Hazırda Qoşa, Qayadibi, Sarıtala, Hacıhəsənli, Qaralar və Şamlıq kəndlərində modul tipli məktəblər quraşdırılır. Qovlar şəhərində isə inteqrasiya təlimli internat tipli gimnaziyanın tədris korpusu əsaslı şəkildə təmir edilmiş, əlavə olaraq bir tədris korpusu və 3 mərtəbəli yataqxana binası tikilərək istifadəyə verilmişdir.

Tovuz rayonu turizm üçün əlverişli imkanlara da malikdir. Bu imkanlardan istifadə etməyə çalışan rayon icra hakimiyyəti hər il turizm mövsümünə ciddi hazırlıq işləri görür. Keçən il həm yerli, həm də xarici turistlərin sayında xeyli artım qeydə alınmışdır. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, eləcə də Kənd Təsərrüfatı Nazirliyinin birgə reallaşdırdıqları layihəyə uyğun olaraq araşdırma aparılmış, yeni turizm məhsullarının və marşrutlarının yaradılması istiqamətində dəstək xarakterli təlim proqramlarına başlanılmışdır. Yaxın vaxtlarda rayonda turizm sektorunun inkişafına kömək məqsədilə bu sahədə çalışacaq nümayəndələrin seçilərək təlim keçmək üçün Avropa ölkələrinin birinə göndərilməsi nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Məqsəd məlumdur

### Ağsulular bu il də üzərlərinə düşən vəzifələrin öhdəsindən gəlmək əzmindədirlər

Nazirlər Kabinetinin 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qaldırılan məsələləri, qarşıya qoyulan hədəfləri və dövlət başçısı tərəfindən verilən tövsiyələri ağsulular da vəzifə olaraq qəbul ediblər. Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev deyir ki, ümumilikdə arxada qalan 2018-ci il Ağsu üçün uğurlu olub.





Sakinlərin məşğulluğunun təmin edilməsi diqqətdə saxlanılıb, yüzlərlə ağsulu mövsümi işlərə cəlb olunub, dövlət strukturlarında və özəl sektorda yaradılan yeni iş yerlərinə və vakansiya yaranan vəzifələrə ixtisaslı kadrlar götürülüb. Bu il də məşğulluq məsələsi prioritetlər sırasındadır. Əvvəlki illərdə olduğu kimi, cari ildə də yüzlərlə sakin ödənişli ictimai işlərə cəlb ediləcək. Hazırda bu yöndə əməli tədbirlər görülür.

Müsahibimizin sözlərinə görə, daha çox aqrar sektorun inkişaf etdiyi rayonda taxılçılıq xüsusi çəkiyə malikdir. Cari ilin məhsulu üçün rayon üzrə 35 min hektar sahədə taxıl əkilib. Məqsəd hektardan 40 sentner taxıl tədarük etməkdir. Ona görə də əkin aparılan sahələrdə aqrotexniki qaydalara ciddi əməl olunub. Torpağın şumlanması və mineral gübrələrlə təminat lazımi səviyyədə icra edilib. Fermerlər zərərvericilərə qarşı mübarizə tədbirlərini diqqətdə saxlayıblar.

Rayonda bu il də pambıqçılığın inkişafı davam etdiriləcək. Cari il 1000 hektar sahədə pambıq əkini planlaşdırılır. Artıq bununla bağlı hazırlıq tədbirləri görülür, şum çıxarılır, qış aratı edilir.

Ağsuda hələ sovetlər dönəmindən əsas sahələrdən biri baramaçılıq olub. Əhali həmişə bu sahədən əldə olunan qazancdan razı qalıb. Son 3 ildə bu istiqamətdə də uğurlar var. Təkcə keçən il 10 ton əvəzinə 10,5 tona yaxın barama istehsal edilib. Cari ildə isə bu rəqəmin 15 tona çatdırılması gözlənilir. Bunun üçün etibarlı yem baza yaradılır.

Elektron kənd təsərrüfatına keçidlə bağlı müəyyən hazırlıq işlərinin görüldüyü Ağsuda vacib istiqamətlərdən biri də Sarvan kəndi ərazisində Aqroparkın tikilməsidir. Burada malların saxlanılması üçün tövlələr hazırdır, yem anbarları inşa edilib. Ərazidə toxum fabriki də fəaliyyət göstərəcək. Hazırda aqroparkda kənd təsərrüfatı təyinatlı 140-dan çox texnika var. Cari ilin payızında həmin obyektin açılışı nəzərdə tutulub.

Əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması və infrastruktur layihələrinin genişləndirilməsi məsələsinə də diqqət yetirilir. Belə ki, ən ucqar dağ kəndlərinin də qazlaşdırılması diqqət mərkəzindədir. Yaşayış məntəqələrinin böyük əksəriyyətində qazlaşdırma başa çatıb. Məqsəd bu prosesi cari ildə yekunlaşdırmaqdır. Kəndlərin yol infrastrukturu yaxşılaşır, bu istiqamətdə layihələr icra olunur.

Bunlardan əlavə, müasir tələblərə cavab verən 250 yerlik mədəniyyət sarayının və 100 yerlik uşaq bağçasının tikintisində son tamamlama işləri görülür. Mədəniyyət sarayında mebellər quraşdırılır, həyət yaşıllaşdırılır.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***





Dövlət Qaçqınkomunun Şirvan üzrə məsləhətçisi Fəxrəddin Niftəliyev və Zəngilan Rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Həsən Hüseynovla məcburi köçkünlər üçün salınan şəhərciyə çatanda gördük ki, böyük bir ərazinin hər tərəfində qızğın iş gedir.

## Şəhər içində şəhər

### Şirvan şəhərində məcburi köçkünlər üçün 685 ailəlik yaşayış massivi salınır



Qaldırıcı kranlar, ekskavatorlar, ağırtonlu yük maşınları, digər texnikalar hamısı hərəkətdə idi. Ustalar divar hörür, beton tökür, suvaq vurur, digər işləri görürdülər. Belə bir mənzərəni seyr etdikcə bəzi ağzıgöyçəklərin mitinqlərdə, orada-burada neftdən gələn gəlirlərin heç nəyə xərclənmədiyindən danışanlar yada düşdü. Onlar ölkədə gedən quruculuq işlərini - tikilən məktəbləri, xəstəxanaları, müalicə-diaqnostika mərkəzlərini, elektrik stansiyalarını, idman komplekslərini, sənaye müəssisələrini, çəkilən yolları, qaçqın və köçkünlər üçün salınan yaşayış evlərini və onlarca, yüzlərlə belə layihələrin icrasını görmürlər? Əgər görmürlərsə, buyursunlar Şirvan şəhərinə, görsünlər burada yaşayan qaçqın və köçkünlər üçün salınan 685 ailəlik şəhərciyi, tikintinin sürətini, vüsətini...

Tikintinin baş texniki nəzarətçisi İldırım Babayev dedi ki, salınan şəhərcikdə doqquzmərtəbəli 13 yaşayış, 540 şagirdlik üçmərtəbəli məktəb, 140 yerlik uşaq bağçası, EATS binaları, klub, icma mərkəzi, inzibati bina, tibb məntəqəsi, hər biri 500 kubmetrlik 4 su anbarı, istilik sistemi üçün qazanxana, müxtəlif güclü 3 elektrik yarımstansiyası, idman meydançaları, park olacaq: "Bundan əlavə, salınacaq küçələrə asfalt döşənəcək, işıqlandırma sistemi quraşdırılacaq. 3 kilometr məsafədən buraya təbii qaz, içməli su xətləri gətiriləcək, kanalizasiya sistemi yaradılacaq, uzunluğu 3,7 kilometr olan şose yolu çəkiləcək".

Obyektin inşasında tender müsabiqəsində qalib çıxmış 17 tikinti təşkilatı iştirak edir. Onların hər biri ayrı-ayrılıqda fəaliyyət göstərir. Tikintinin rəhbər və mütəxəssisləri də hər gün buradadırlar. Ayrı-ayrılıqda hər birinin səyyar ofisi var. "Rabitə-İnşaat" ASC, "Minera" MMC, "Tunel-Metro-İnşaat" MMC və başqaları işin sürəti ilə yanaşı, keyfiyyətinə də xüsusi diqqət yetirirlər.

Qeyd edək ki, obyektdə işə cari ilin yanvar ayında başlanılıb. Bu müddət ərzində bir neçə doqquzmərtəbəli binanın 3-cü, 540 yerlik məktəbin 2-ci mərtəbəsində, qazanxanada bütün işlər başa çatdırılıb. Öyrəndik ki, mal-material sarıdan heç bir çatışmazlıq yoxdur. Tikintiyə 60-dan çox müxtəlif markalı texnika cəlb olunmuşdur. Usta və fəhlələrin sayı 800 nəfərdir. Onların çoxu Şirvan şəhərinin sakinləridir. Hər bir tikinti təşkilatı öz fəhlə və mütəxəssislərini xüsusi geyimlə təmin etmişdir. Ərazidə onlara xidmət göstərmək üçün yeməkxana yaradılmışdır. Aylıq əməkhaqqı orta hesabla 500 - 1000 manat arasındadır.

Məlumat üçün bildirək ki, doqquzmərtəbəli yaşayış binalarında mənzillərin ümumi sahəsi 74 min 208 kvadratmetrdir. Mənzillərdəki otaqların sayına gəldikdə isə onlardan 64-ü bir, 298-i iki, 270-i üç, 53-ü dördotaqlı olacaq.

Baş texniki nəzarətçi İ.Babayev sifarişçisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun olduğu şəhərciyin iyul ayında istifadəyə veriləcəyini bildirdilər. Beynimizdə belə bir sual yarandı: yarım ildə bu böyüklükdə obyektdə işləri tamamlamaq olarmı? Sualımıza özümüz də cavab tapdıq - əgər qısa müddətdə bu qədər işlər görülübsə, qalan vaxt ərzində şəhərciyi də təhvil vermək mümkündür.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

AZƏRBAYCAN www.azerbaijan-news.az

Həmkarlarımız

# O yazını tezliklə oxuyacağıq!..

Azərbaycan ailələrində hələ indi, XXI əsrdə - cəmiyyətin hərtərəfli inkişaf etdiyi, gender bərabərliyinin bərqərar olduğu bir vaxtda da qızların jurnalist sənətinə yiyələnməsinə münasibət birmənalı deyil. Bu, bəlkə də təbiidir. Çünki əsl jurnalistin - fərqi yoxdur, kişidir, ya qadın - konkret iş saatı olmur. Yazını vaxtında, bəzən təcili surətdə hazırlamaq, ezamiyyətə getmək, qəzetin ertəsi gün çıxacaq nömrəsinin məsul növbətçisi olmaq, daim düşünmək, yeni yazılar üçün mövzu və qəhrəman axtarmaq, qələmə sarılıb saatlarla çalışmaq, gecəni gündüzə qatmaq daim onun qarşısında dayanan tələblər, işlərdir.



Xanım jurnalist ailə həyatı qurandan, ana olandan sonra vəziyyət daha da mürəkkəbləşir... Nə xoş ki, bu çətinlikləri bilə-bilə Rəfiqə xanımın jurnalist sənətinə yiyələnməsi və sonra da ömrünü həmin sahəyə həsr etməsi qarşısında sədd çəkilməyib.

Həm də söhbət bu gündən deyil, 1966-cı ildən, rayonda orta məktəbi bitirib sənədlərini Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) Jurnalistika fakültəsinə təqdim edən bir qızın taleyindən gedir. "Gəncənin səsi" qəzetinin baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin Gəncə şəhər təşkilatının sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Ali media mükafatçısı Rəfiqə Sadıqovanı deyirik. O zaman sənədlərini başqa bir ali məktəbə verməsini təkid etmək onun istedadı, savadı, yaradıcı təfəkkürü, bədii-estetik zövqü və seçdiyi sənətə sevgisi qarşısında sədd çəkmək demək olardı. Övladlarının mükəmməl savad, gərəkli peşə sahibi, yaxşı insan olmasını bütün varlığı ilə arzulayan və daim buna çalışan Sədəf xanım isə onların seçiminə həmişə hörmətlə və həssaslıqla yanaşırdı.

Rəfiqə Sadıqovanın bəxti sonra da gətirdi - ömür-gün yoldaşı yaradıcılıq yollarında ona dəstəkçi oldu, işinə, sənətinə həmişə hörmətlə yanaşdı və bu, indiyədək belədir.

Arxaya boylananda Rəfiqə Sadıqova keçdiyi yolların başlanğıcında, o zaman Ağdam rayonunda çıxan "Lenin yolu" qəzetinin redaksiyasında eşitdiyi bir xeyir-duanı da tez-tez xatırlayır: "Qızım, sən elə jurnalistliyi seç, uğur qazana biləcəksən".

O vaxt orta məktəbin yuxarı siniflərində təhsil alırdı, qəzetə yazmağa isə altıncı sinifdə oxuyandan başlamışdı. Onu "balaca müxbir" deyə çağırırdılar...

İllər keçəcək və ali təhsilini də uğurla başa çatdırıb jurnalist diplomu alan, təyinatı "Gəncənin səsi" (o vaxt "Kirovabad kommunisti" adlanırdı) qəzetinə verilən Rəfiqəni burada "iti qələm" (yəni iti qələm sahibi) deyə çağıracaqlar.

Gəncə intellektual səviyyəsi yüksək olan şəhərdir. Odur ki, gəncəli oxucuların diqqətini cəlb etmək, onların sevgisini qazanmaq o qədər də asan deyil. Rəfiqə Sadıqova isə bunu bacardı - istedadı və biliyi, zəhmətsevərliyi, peşəkarlığı, işinə məsuliyyəti ilə...

Münasibət qarşılıqlı oldu - Rəfiqə bu şəhəri sevdi, oxucular da onun imzasını tanıdılar, qəbul etdilər.

Müxbirlikdən başlayıb sonra şöbə müdiri, redaktor müavini və indi artıq doqquz ildir baş redaktor olan xanım jurnalistin mövzusundan, janrından, həcmindən asılı olmayaraq qələmə aldıqlarının hamısı rəğbətlə qarşılanır. Bu isə jurnalistin peşəkarlıq səviyyəsinin meyarıdır.

Adətən jurnalistlərin əksəriyyəti konkret bir mövzuda yazır. Təbii ki, çalışdıqları mətbuat orqanı, yaxud şöbə onları hər hansı bir sahə üzrə "ixtisaslaşdırır". Ona görə də qələm sahibləri yaxşı bilirlər ki, uzun müddət bir mövzuda yazdıqdan sonra digərinə keçmək bəzən heç də asan olmur. Amma qələmi üçün bu məhdudiyyət olmayan jurnalistlər də var ki, onlardan biri də məhz Rəfiqə Sadıqovadır.

Biz hələ janrları demirik... Bütün qəzet janrlarından bacarıqla istifadə edən bu xanım jurnalist uzun illərdir publisistikada da qələm işlədir. Portret oçerkləri xüsusilə uğurlu alınır. Burada o, insanın bütün mənəvi aləmini və zahiri görüntülərini kağıza sanki bir rəssam kimi köçürür. Psixoloji məqamları qələmə almaq və hər sözdən yerində istifadə etməklə canlı obraz yaradır.

Rəfiqə Sadıqovanın qadınlara həsr etdiyi silsilə oçerklər xüsusilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, buna görə hələ 1982-ci ildə "Qızıl qələm" mükafatına layiq görülüb. Bu daimi mövzusu indi daha da şaxələnərək müəllifin irihəcmli əsərlərində də öz əksini tapır.

Yeri gəlmişkən, təcrübəli jurnalisti narahat edən məsələlərdən biri bu gün qəzetlərimizdə janrların "itməsi"dir. "Nə üçün jurnalistikamızda zarisovka, oçerk, təhlili yazılar azalıb? Sanki hamı informasiya janrında, xəbər üslubunda yazır..." - deyir.

İnformasiya texnologiyalarının jurnalistlərin köməyinə gəldiyinin yaxşı hal olduğunu söyləsə də, Rəfiqə xanım bundan yerli-yerində, faydalı istifadə etməyin vacibliyini xüsusi vurğulayır. Belə ki, jurnalist hər hansı mənbədən götürdüyü materiala da öz duyğusunu qatmalı, öz münasibətini bildirməli, faktları təhlil etməlidir. Ən azından əldə olunan məlumatların sistemləşdirilməsi, onların arasında əlaqə, keçid yaradılaraq məqalə halına salınması vacibdir.

Qaldı ki, jurnalistin müxtəlif janrlarda yazmağına... Rəfiqə xanım bunun da mümkünsüzlüyünü inkar edir: "Gəlin idmandakı beşnövçülüyü yada salaq..."

Rəhbəri olduğu jurnalist kollektivinin yaradıcılığında bunlara riayət edilməsinə çalışan baş redaktor ən yaxşı nümunəni özü göstərir. İstəyir ki, "Gəncənin səsi" yüksək səviyyədə çıxsın, qəzet oxucu əlindən düşməsin. Axı bu, zəngin ənənələrə malik bir qəzetdir, gələn il 100 yaşı tamam olacaq!

Jurnalistikada uzun bir yol keçən Rəfiqə Sadıqova heç vaxt hansısa vəzifəni tutmağa, yaxud titullar qazanmağa can atmayıb. Layiq görüldüyü "Tərəqqi" medalı, "Qızıl qələm", Həsən bəy Zərdabi mükafatları, Ali media mükafatı və s. halal zəhmətinə verilən layiqli qiymətdir.

Bir mükafatı da oxucuların rəğbəti, daha biri isə həm çevrəsindəki, həm də bəzən heç yaxından tanımadığı insanların minnətdarlığıdır. Axı Rəfiqə xanım ünsiyyətcil, qəlbiaçıq, bacardığı, imkanı çatdığı köməyi əsirgəməyən insandır. Belələri haqqında el arasında deyirlər ki, əsl xeyir-şər adamıdır. Yəni başqasının sevincinə şərik çıxmağı, dərdini isə bölməyi bacarır, ona kömək üçün üz tutanı naümid qoymamağa çalışır. Bu, Rəfiqə Sadıqovanın genindən, sənətindən, həyat təcrübəsindən qaynaqlanır.

"Düzü düz, əyrini əyri" demək onun həyat devizidir. Odur ki, lazım gələndə haqq səsini ucaltmağı da bacarır. Məsələn, 2004-cü ildə Ankara Ticarət odası və erməni araşdırmalar mərkəzinin təşkil etdiyi simpoziumda Xocalı soyqırımı haqqında etdiyi məruzə tədbirin xüsusi buraxılışında nəşr olunub.

Və bütün bunlar bir yerə toplanaraq Rəfiqə Sadıqovaya özünü həm də səriştəli bir yazıçı kimi tanıtmağa imkan verib. O, "Dünya beş günlük deyil", "İkinci toy" və "Nigaran qalacağam" romanlarının, "Yarımçıq səadət" sənədli povestinin müəllifidir. "Gecikmiş etiraf" və "Lalə əfsanəsi" hekayələri ingilis dilinə tərcümə edilərək Amerika oxucularına təqdim olunub.

2017-ci ildə müəllif bədii yazılarına görə Prezident mükafatına layiq görülüb.

Yazıçı-dramaturq, Milli Məclisin deputatı Hüseynbala Mirələmovun müəllifin "Gecikmiş etiraf" kitabının "Ön söz"ündə yazdığı kimi: "Jurnalistlik fəaliyyəti dövründə daha çox insan taleləri, milli-mənəvi dəyərlər və ailə-məişət münasibətləri mövzusunda qələm işlətməyi sevən Rəfiqə Sadıqovanın çalışdığı "Gəncənin səsi" qəzetinin səhifələrinə sığmayacağı və gec-tez ədəbiyyatın geniş havasına çıxacağı məntiqi və gözlənilən idi. Belə də oldu. Ədəbiyyatda ilk qələm təcrübəsi sayılan "Dünya beş günlük deyil" romanı əslində illər boyu qəzet səhifələrində bəsləyib boya-başa çatdırdığı, araya-ərsəyə gətirdiyi çoxsaylı publisistik qəhrəmanların, özünəməxsus xarakter və xüsusiyyətləri olan Azərbaycan qadınının bədii obrazı idi. Əsərin qısa müddətdə qazandığı uğur və oxucu məhəbbətinin bir səbəbi bəlkə də elə bunda idi".

Oxucu istəyinə hörmət əlaməti olaraq təkrar nəşr edilən, povest, hekayə əlavə olunmaqla toplu halına salınan "Gecikmiş etiraf" kitabı həssas, duyğulu, milli mənsubiyyətimizə bağlı olan, halal zəhməti ilə ucalmağı bacaran, yüksək və ali keyfiyyətləri özündə ehtiva edən insanlığın yoluna məharətlə çıraq tutur. Bu çırağın işığından istifadə edib öz həyat yolunu düzgün müəyyənləşdirmək bacarığı isə arzu edənlərin öz əlindədir.

Rəfiqə Sadıqova vaxtaşırı ölkənin mərkəzi mətbuatında da bədii və publisistik yazılarla çıxış edir. Müxtəlif yazıları ilə respublikadaxili yaradıcılıq müsabiqələrinin qalibi olub.

Yeri gəlmişkən, Rəfiqə xanım istənilən vaxt paytaxta köçüb mərkəzi mətbuatda çalışa bilərdi, bunun üçün heç bir maneə olmayıb. Əksinə, dəfələrlə imkan və şans da düşüb - həyat yoldaşı, tarix elmləri doktoru, professor Həsənbala Sadıqova Bakıda fəaliyyət göstərmək haqqında təkliflər gəlib. Amma görünür, Gəncə bu ailənin tale şəhəridir...

Bir alim ömrünə yol yoldaşı olan xanım, bir cüt oğul ömrünün keşiyində dayanan anadır Rəfiqə Sadıqova. Dörd əziz nəvəsi isə ömür bağının şirin barıdır.

Həmişə baharlı duyğularla yaşayan Rəfiqə xanım, demə, elə yazda dünyaya göz açıb. Bu günlərdə ömrünün növbəti baharını qarşılayır və... söz yox ki, "könlü keçir Qarabağdan", doğulduğu, böyüdüyü, ilk gəncliyini yaşadığı Ağdamdan. Onun hiss və duyğularında bu yerlər doğma, əziz bir canlı kimi əsirlikdədir və bu, qəlbinin yeganə, lakin böyük, miqyası ölçüyə gəlməyən nisgilidir. "Ağdam barədə heç yaza da bilmirəm, - deyir. - Amma yazacağam, indiyədək yazdıqlarımın ən yaxşısını azad edilmiş Ağdamdan yazacağam".

Həmkarımız Rəfiqə Sadıqovaya cansağlığı və xoşbəxtlik, yaradıcılıq uğurları və dediyi o yazısını tezliklə oxumaq arzusu ilə

***Flora SADIQOVA,***
***"Azərbaycan"***

# "ASAN Həyat"da Bahar festivalı

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə "ASAN Həyat" Bahar festivalına start verilib. Qubaya təşkil edilən mediaturun da məqsədi Baharın "ASAN" gəlişini qeyd etmək idi.



## Elimizə bahar gəlir

Qubaya çatdığımız andan yağışa düşsək də, baharın gəlişini quşların nəğməsindən, təbiətin yaşıllaşmasından, ağacların çiçəkləməsindən hiss etmək olurdu. Ölkəmizin bu dilbər guşəsinə Quba "ASAN Həyat" kompleksində keçirilən festivalın ikinci günü gəlmişdik.

Festivalın məqsədi barədə jurnalistləri məlumatlandıran İnnovasiyalar Mərkəzinin direktoru Tağı Tağızadə bildirdi ki, 2-19 mart tarixini əhatə edəcək tədbir çərçivəsində milli personajların iştirakı ilə Novruz tamaşaları, pəhləvan və kəndirbaz oyunları, milli ornamentlərin sərgisi, idmançıların çıxışları, müxtəlif konsert proqramları təşkil olunacaq, yerli şirkətlərin məhsullarından ibarət satış yarmarkası həyata keçiriləcək. Bu mənada festivalın əsas məqsədi xalqımızın qədim dəyərlərindən olan Novruz bayramının adət-ənənələrini yaşatmaq, onları gələcək nəsillərə ötürmək, regionların sosial mədəni həyatına, bayram əhval-ruhiyyəsinin yüksəldilməsinə töhfə vermək və asudə vaxtın səmərəli təşkilini təmin etməkdir.

## Türkdilli ölkələrin Novruzu

2-5 mart Quba, 12-16 mart Şəki, 16-19 mart tarixlərində Masallı "ASAN Həyat" komplekslərində keçirilməsi nəzərdə tutulan tədbirin əsas özəlliklərindən biri də ölkəmizdə akkreditə olunmuş və Novruz bayramını qeyd edən diplomatik korpusun nümayəndələrinin bu festivalda iştirakıdır. Bununla yanaşı, Azərbaycandakı milli etnik azlıqların nümayəndələri də öz adət-ənənələri ilə festivalda təmsil olunurlar.

Mərkəzin direktoru qeyd etdi ki, Novruz bayramı ərəfəsində qeyd olunan ölkələrin təmsilçilərinin festivalda iştirakının təmin olunması Azərbaycanla bu dövlətlər arasındakı mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Elə müşahidələrimiz zamanı da gördük ki, Özbəkistan, İran, Qazaxıstan, Türkmənistan nümayəndə heyətləri öz ölkələrinə məxsus guşələrdə adət-ənənələrini nümayiş etdirirlər. Özbəkistana məxsus guşədə söhbətləşdiyimiz Şahidə Mehdiyeva bildirdi ki, ölkəsində Novruz bayramı çox böyük sevinclə, Yeni il kimi qeyd edilir. Süfrənin əsas yeməklərindən biri isə sümələk (səməni) yeməyidir. Səmənini 24 saat ərzində bişirib, bayram günü süfrəyə verirlər. Həm müalicəvi, həm də dadlı olan bu yeməklə yanaşı, süfrəyə özbək aşı, həmçinin çak-çak, çukvara kimi şirniyyatlar düzülür.

## Bayram ab-havası

Festivalda, satış yarmarkası, eləcə də "ABAD" publik hüquqi şəxsin "ABAD Gastro Village" layihəsi çərçivəsində "food trucklər" (təkərli qoşqular) nümayiş olunurdu. Burada "ABAD" məhsullarından hazırlanmış "fast food"ların satışı həyata keçirilir. Elə orada olduğumuz vaxt tanınmış incəsənət ustalarının iştirakı ilə rəngarəng konsert proqramı təşkil edildi.

"ASAN xidmət" tərəfindən təşkil edilən Novruz proqramı bölgələrimizdə bayram ab-havasının daha da yüksəlməsinə öz töhfəsini verəcək.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

5 mart Bədən Tərbiyəsi və İdman Günüdür

# 50 ölkə, 3600-dən çox atlet, 10 idman növü

## "Bakı-2019" Avropa Gənclər Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı olacaq

Əvvəli 1-ci səh.







İyulun 20-28-də təşkil olunacaq XV Yay Avropa Gənclər Olimpiya Festivalını Bakıda keçirmək hüququnu əldə etməsi dünya idman ictimaiyyətinin ölkəmizə marağının artmasından irəli gəlir.

2018-ci il mayın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa Gənclər Olimpiya Festivalının 2019-cu ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. Təşkilat Komitəsinin ötən bir il ərzində məqsədyönlü fəaliyyəti digər təşkilatlara örnəkdir. Çünki festivala 3 aydan bir az çox vaxt qalmasına baxmayaraq, cəsarətlə deyə bilərik ki, Avropa ölkələrinin federasiya nümayəndələri, idmançıları, şəhərimizin qonaqları burada aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, insanlarımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış mərasimindən heyrətə gələcəklər.

## Gənc idmançıları bir araya gətirən yarış

Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını, dəyərlərini və ideallarını öyrətmək, təbliğ etmək üçün Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülmüşdü. 14-18 yaşlılar arasında gənc avropalı idmançıları bir araya gətirən yarış ilk dəfə 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. İki ildə bir dəfə (cüt deyil, tək illərdə) - qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları və ya Panama Gənclər Oyunları kimi ənənəni həmçinin Avropada davam etdirmək imkanını yaradır.

Festivala evsahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququnu qazanır.

Paytaxtımızda təşkil olunacaq və yeddi gün davam edəcək yarışın açılış mərasimi 21 iyul tarixində olacaq. Avropa Olimpiya Komitəsinin 49 nümayəndə heyətinin rəhbəri yarışa gələcəklərinə dair təsdiq veriblər. Ümumilikdə 50 Avropa ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışa qatılmaq üçün ölkəmizə gələcək.

12 arenada 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

## Yarışın talismanları

"Bakı-2019"un rəsmi talismanları Cırtdan və Bəbirdir. Tərcümədə "kiçicik" mənası daşıyan Cırtdan Azərbaycanda uşaqların ən populyar nağıl personajıdır. Həmyaşıd olan digər uşaqlardan balaca olmağına baxmayaraq, Cırtdan öz cəsarətindən və zəkasından ilhamlanır. O, güclü milli özünəməxsusluğu, dərrakəsi, hazırcavablığı, mübarizliyi və digərlərinə rəğbəti ilə seçilir. Nağılların birində Cırtdan Divin başını qataraq, özünü və dostlarını xilas edir. O göstərir ki, gənc və balaca olmasına baxmayaraq, qorxmaz qəhrəman ola bilər.

Qafqaz bəbiri isə Azərbaycanın füsunkar təbiətinin zənginliyini təşviq edəcək. Qafqaz bəbiri Azərbaycan faunasında ən yaxşı tanınan və haqqında geniş məlumat olan heyvan növlərindən biridir. Azərbaycan mifologiyasında bəbirin şəklinə tez-tez rast gəlmək olar. Bu heyvan təbii gözəllik, güc, qorxmazlıq və sürət rəmzidir. Keçmişdə Qafqazda geniş yayılmış bəbir hazırda yoxa çıxmaq üzrədir və Azərbaycanda, eləcə də regionda qorunan ən prioritet cinslərdən birinə çevrilmişdir.

Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, Azərbaycanda Qafqaz bəbirinin sayı 15-dən də aşağı düşmüşdür. 2014-cü ildə Azərbaycanın IDEA (Ətraf Mühit naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və bəbirlərin qorunması ilə məşğul olan "Pantera" adlı dünyanın aparıcı təşkilatı arasında gələcək əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Memoranduma əsasən Azərbaycanda bəbirlərin yaşayış şəraitinin qiymətləndirilməsi və gələcək nəsillər üçün bu heyvanların qorunması məqsədilə xüsusi monitorinq proqramı tərtib edilmişdir.

## "Bakı-2015"dən "Bakı-2019"adək

Ümumiyyətlə, Azərbaycan böyük beynəlxalq yarışların keçirilməsi və ən yüksək səviyyədə təşkili cəhətdən artıq kifayət qədər təcrübəyə malikdir. "Bakı-2015" I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarış günlərində həyata keçirilən təşkilatçılıq işlərinə, möhtəşəm idman bazalarımıza, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Bakının təcrübəsindən istifadə edəcəklərini söyləyirdilər. Eyniliklə bu kimi fikirlərə Olimpiya festivalına gedən hazırlıq prosesi çərçivəsində də rast gəlmək mümkündür.

Təşkilatçılıqla yanaşı, ölkələrin idman sahəsində qazandıqları nəticələr də çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Dörd il öncə paytaxtımızda təşkil edilən və Avropa Oyunlarının standartlarını müəyyənləşdirən "Bakı-2015" eyni zamanda idmançılarımız üçün ən böyük qələbə meydanı oldu. Avropanın 50 ölkəsindən 6000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutublar.

IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız elə bir möhtəşəm uğura imza atdılar ki, bu, hələ uzun müddət yaddaşlardan silinməyəcək. Belə ki, atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş, 37 bürünc) "Bakı-2017"nin ən güclüləri oldular.

## 10 Olimpiya festivalında iştirak, 17 qızıl medal

Azərbaycan təmsilçiləri Olimpiya festivallarında 1993-cü ildən çıxış etməyə başlayıblar. Atletlərimiz indiyədək iştirak etdikləri festivallarda yüksək nəticələr qazanıblar. Bu yarışlarda uğurlar əsasən cüdo və atletika idman növlərində əldə olunub. Azərbaycanın yeniyetmə idmançıları buna qədər keçirilmiş Avropa Yeniyetmələrinin 13 Olimpiya festivalından 10-da iştirak edib və ümumilikdə 45 medal (17 qızıl, 10 gümüş 18 bürünc) qazanıblar. Bu idman yarışlarında əldə olunmuş 45 medaldan 38-i cüdoçularımızın (13 qızıl, 9 gümüş, 16 bürünc), 7-si isə atletlərin (4 qızıl, 1 gümüş, 2 bürünc) payına düşür.

Xatırladaq ki, 2015-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə təşkil olunan XIII Avropa Gənclərinin Olimpiya Festivalı atletlərimiz üçün uğurlu olmuşdu. İdmançılarımız 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla ümumi turnir cədvəlində 22-ci yeri tutublar.

2017-ci ildə Macarıstanın Gyor şəhərində keçirilən Yeniyetmələrin sayca 14-cü Olimpiya Festivalında isə qitənin 50 ölkəsindən 3600-ə qədər idmançı medallar uğrunda mübarizə aparıb. Komandamız yarışın yekununda 50 ölkə arasında 33-cü yeri tutub. 41 idmançı ilə turnirə yollanan yığmamız iki medalla kifayətlənməli olub. Cüdoçulardan 40 kq çəki dərəcəsində yarışan Vüsalə Kərimova festivalın gümüş medalına layiq görülüb. Adil Kərimli isə (-90 kq) bürünc medal qazanıb.

Rusiya yığması 30 qızıl, 19 gümüş və 12 bürünc medalla ümumi komanda hesabında birinci yeri tutub. 14 qızıl, 11 gümüş, 13 bürünc medal əldə edən İtaliya millisi ikinci olub. Ev sahibləri isə festivalda 13 qızıl, 14 gümüş və 14 bürünc medala yiyələniblər.

Bu hələ son deyil. Qarşıda daha bir turnir və qazanılacaq medallar var. İnanırıq ki, XV Avropa Gənclər Olimpiya Festivalı Azərbaycan idmançılarının doğma divarlar arasında növbəti zəfər meydanı olacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə xüsusi yığıncağın Bəyannaməsi imzalanıb




Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan xarici işlər nazirlərinin "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə Rumıniyanın paytaxtı Buxarestdə keçirilən xüsusi yığıncağının sonunda Bəyannamə imzalanıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bəyannamədə nazirlər suverenliyə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmətlərini bir daha təsdiq ediblər. Nazirlər Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan arasında sahəvi əməkdaşlığın cari uğurlarını vurğulayıb, ticarət və iqtisadi münasibətlərin genişləndirilməsinin önəmini vurğulayıblar. Həmçinin qlobal ticarətə və səmərəli nəqliyyat bağlılığına artan beynəlxalq əhəmiyyəti nəzərə alaraq nazirlər dördtərəfli əməkdaşlıq formatında Qara dəniz və Xəzər dənizi arasında beynəlxalq nəqliyyat marşrutunun inkişafının bütün dörd ölkə üçün mühüm layihə olduğunu hesab ediblər.

Bəyannamədə Qara dəniz və Xəzər dənizi ölkələrinin Avropa və Asiyanı birləşdirən rəqabətqabiliyyətli əlaqə qismində Qara dəniz-Xəzər dənizi yük daşımaları marşrutunun daha da təşviqində mühüm rol oynadığı vurğulanıb. Qara dəniz-Xəzər dənizi beynəlxalq nəqliyyat marşrutunun Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan əraziləri boyunca Asiya dövlətlərindən Xəzər dənizi və Qara dəniz vasitəsilə Avropaya malların səmərəli daşınmasının qurulmasını hədəfləmiş digər oxşar regional layihələri tamamlayacağı qeyd edilib.

Avropa Qonşuluq Siyasətinin və Mərkəzi Asiya üzrə Aİ Strategiyasının əsas elementlərindən biri kimi təkmilləşdirilmiş qarşılıqlı bağlılığın prioritetliyi vurğulanıb, karqonun səmərəli daşınması üçün alternativ marşrut, Mərkəzi və Şimal-Qərbi Avropa su kanalları ilə vacib əlaqə kimi Konstanta limanı və Dunay çayı arasında birbaşa marşrutu inkişaf etdirmək üçün bütün zəruri şəraitlərin yaradılmasının vacibliyi ifadə olunub.

Avropa İttifaqını Mərkəzi Asiya ilə Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan üzərindən keçməklə birləşdirən beynəlxalq nəqliyyat marşrutunu inkişaf etdirmək üçün Aİ ilə mövcud və digər potensial əməkdaşlıq formatlarından ən yaxşı şəkildə yararlanmağın vacibliyi vurğulanıb.

Nazirlər beynəlxalq nəqliyyat marşrutu çərçivəsində layihələrin və təşəbbüslərin həyata keçirilməsində özəl müəssisələrin və biznes dairələrinin fəal iştirakının təşviqinin vacibliyini bildirib, həmçinin beynəlxalq tərəfdaşları konsepsiya çərçivəsindəki təşəbbüslərin həyata keçirilməsində fəal əməkdaşlığa çağırıblar. Regional iqtisadi əməkdaşlığın və inteqrasiyanın artım üçün geniş imkanlar təklif etdiyini, habelə daha geniş regionda mövcud olan uzunmüddətli iqtisadi potensialdan istifadə etməyə və onu inkişaf etdirməyə kömək edə biləcəyini təsdiqləyiblər, eləcə də regionda iqtisadi rifahın əldə edilməsində təsirli vasitə olan iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinin zərurətini vurğulayıblar.

Bakı Beynəlxalq Dəniz Limanı infrastrukturunun inkişafında əldə edilən nailiyyətlər ilə yanaşı, Ələtdəki Azad İqtisadi Zonanın (AZ), Batumi limanlarının (GÜR), Poti (GÜR), Constantsa (RUM) və Türkmənbaşı Beynəlxalq Dəniz Limanının (TM) yaradılması, habelə Anakliya (GÜR) Dərin Dəniz Limanının tikilməsi vurğulanıb, beynəlxalq nəqliyyat marşrutunun müvəffəqiyyətli və effektiv istismarı üçün qeyd olunan limanların təklif etdiyi vasitələr/imkanlardan faydalanmanın əhəmiyyətini diqqətə çəkiblər.

Qara dəniz - Xəzər dənizi beynəlxalq nəqliyyat marşrutu daxilində və xaricində malların sürətli və təhlükəsiz daşınmasını təmin edəcək bütün dörd iştirakçı dövlətdə yerinə yetirilən digər infrastruktur layihələrinin inkişafını önə çəkiblər.

Nazirlər sürətli və effektiv tərəqqinin təmin edilməsi üçün praktik addımların həyata keçirilməsini razılaşdırıblar, xüsusilə də:

Qara dəniz - Xəzər dənizi beynəlxalq nəqliyyat marşrutunun (bundan sonra \"BSCS beynəlxalq nəqliyyat marşrutu\") yaradılması təşəbbüsünün səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə danışıqlar aparmaq və bütün texniki aspektlər üzrə əməkdaşlıq etmək üçün dördtərəfli ekspert işçi qrupunun təsis edilməsi;

Əməliyyat prosedurlarının optimallaşdırılması və müvafiq milli orqanların səmərəli əməkdaşlığının təmin edilməsi yolu ilə BSCS beynəlxalq nəqliyyat marşrutunun fasiləsiz işləməsini təmin etmək;

BSCS beynəlxalq nəqliyyat marşrutunun rəqabət qabiliyyətinin artırılması üçün tariflərin uyğunlaşdırılması və gömrük prosedurlarının sadələşdirilməsi işini asanlaşdırmaq;

Bu layihənin həyata keçirilməsi üçün iştirakçı dövlətlərin milli operatorları arasında əməkdaşlığı asanlaşdırmaq;

Mövcud təhdidlərin yumşaldılması məqsədilə müvafiq tədbirlərin görülməsi üçün dəhliz boyunca qalan infrastruktur boşluqlarını və asanlaşdırma ehtiyaclarını müəyyənləşdirmək;

BSCS beynəlxalq nəqliyyat marşrutunu digər maraqlı dövlətlər və beynəlxalq təşkilatlarla, xüsusilə Avropa İttifaqı ilə birgə təşviq etmək, müvafiq infrastrukturu daha da inkişaf etdirmək və əlavə yük axınlarını cəlb etmək;

BSCS beynəlxalq nəqliyyat marşrutunun təhlükəsiz, səmərəli, əlverişli və ekoloji cəhətdən əsaslandırılmış şəkildə istifadəsini təşviq etmək;

Nəql olunma prosesinin bütün tərəfləri üçün rəqabət şəraitinin təmin edilməsi məqsədilə iştirakçı dövlətlərin nəqliyyat qanunvericiliyinin təkmilləşdirilməsini nəzərdən keçirmək;

Bərələrin işlənmə müddətinin azaldılması, ixrac-idxal prosedurlarının sadələşdirilməsi və xidmət keyfiyyətinin yaxşılaşdırılması baxımından rəqəmsal texnologiyalardan istifadənin və qabaqcıl informasiya mübadiləsi sisteminin tətbiqini təşviq etmək;

Beynəlxalq nəqliyyat marşrutu olan Qara dəniz - Xəzər dənizi coğrafiyasını genişləndirmək məqsədilə maraqlı ölkələrlə dialoqu davam etdirmək;

Nailiyyətləri qiymətləndirmək və Qara dəniz - Xəzər dənizi beynəlxalq nəqliyyat marşrutunun təşviqi üçün növbəti addımları planlaşdırmaq məqsədilə ildə bir dəfədən az olmamaq şərtilə nazirlər səviyyəsində mütəmadi görüşlər keçirmək.

# *Nazir:* "Azərbaycan "Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu"nun inkişafına töhfə verməyə hazırdır"

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan xarici işlər nazirlərinin "Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə xüsusi yığıncağında iştirak edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Yığıncaqda çıxış edən nazir Elmar Məmmədyarov bu görüşün əhəmiyyətindən danışaraq onun nəticələrinin nəqliyyat, tranzit və logistika sahələrində iştirakçı ölkələr və digər maraqlı tərəflər arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Qeyd edib ki, Rumıniya və Türkmənistan tərəfindən irəli sürülən CSBS ideyası ötən il Aşqabadda mütəxəssislər tərəfindən ilkin olaraq müzakirə olunub. "Ölkələrimizin əhatə etdiyi region müstəsna geostrateji əhəmiyyətə malikdir. O, təbii şəkildə Avropa və Asiya arasında körpü təşkil edərək, eyni zamanda, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin kəsişməsində yerləşən mühüm nəqliyyat qovşağıdır. Bu gün ölkələrimiz arasında yeni bir əməkdaşlıq istiqaməti yaratmaq niyyətimizi dəstəkləmək üçün burada toplandıq. Əməkdaşlığımızın təməlində ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin pozulmazlığına qarşılıqlı dəstək prinsipi durur. Əlbəttə ki, nəqliyyat infrastrukturunun inkişafı həmişə ticarət həcmlərinin artmasında böyük rol oynayıb və bu da öz növbəsində, ümumi ikitərəfli və çoxtərəfli münasibətlərin təşviqinə sürətləndirici təsir göstərir. Bunu nəzərə alaraq Azərbaycan həmişə regionda qarşılıqlı əlaqələrin yaradılmasına güclü dəstək göstərib və Şərq-Qərb, Şimal-Cənub, eləcə də Cənub-Qərb nəqliyyat dəhlizlərini təbliğ etməklə regionun tranzit potensialını artırmaq üçün səylərini əsirgəməyib. Bu baxımdan, 2017-ci ildə istismara verilən Bakı-Tbilisi-Qars dəmir yolu yalnız iştirakçı ölkələri deyil, həm də qitələri birləşdirəcək. Bununla yanaşı, Azərbaycanın Ələt şəhərində yeni Beynəlxalq Dəniz Ticarət Limanının və onun Beynəlxalq Logistik Mərkəzinin tikintisi, eləcə də Azad İqtisadi Zonanın yaradılması beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətini və regionun ticarət və tranzit imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

Rumıniya bizim üçün Aİ bazarına coğrafi darvazalardan biridir, ancaq CSBS marşrutunun reallaşdırılması ilə bu darvazanın fəal işlək vəziyyətə gətiriləcəyinə inanıram. Bilavasitə qonşularımıza gəldikdə, Türkmənistan bizə Mərkəzi Asiyaya, daha sonra isə Uzaq Şərqə çıxışı təmin edir, Gürcüstan da bizim üçün Şərq-Qərb və Cənub-Qərb nəqliyyat dəhlizlərinə vacib bağlantıdır, habelə Qara dənizə giriş nöqtəsidir", - deyə nazir vurğulayıb.

Bildirib ki, sözügedən ümidverici perspektivlər və bu təşəbbüsün verə biləcəyi geoiqtisadi faydaya istinad edərək, mən yenə də geniş bölgədə daha bir rəqabətli bağlantı olmasına yönəldilmiş "Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu"nun dördtərəfli əməkdaşlıq şəklində inkişafına Azərbaycanın dəstək verdiyini təsdiqləmək və bu prosesə fəal töhfə verməyə hazır olduğumuzu bildirmək istərdim. Şübhə etmirik ki, dördtərəfli işçi qrupunun yaradılması və ekspertlərimiz tərəfindən yol xəritəsinin hazırlanması nəticədə bizi CSBS-nin sürətlə həyata keçirilməsi və tədricən onun səmərəli istismarını təmin etmək istiqamətində çoxtərəfli razılaşmaya gətirib çıxaracaq.

# "Avtolüks Azərbaycan" MMC Bakıda yeni müasir "Jaguar Land Rover" mərkəzi açır




**"Jaguar Land Rover" avtomobillərinin Azərbaycanda rəsmi dileri olan "Avtolüks Azərbaycan" MMC Bakıda yerli müştərilərə satış, texniki xidmət və satışsonrası xidmətlər göstərməyə hazır olan yeni mərkəzin açılışı ilə ölkədə olan fəaliyyətini genişləndirməyə davam edir.**

AVTOLUX







"Jaguar Land Rover" Yaxın Şərq və Şimali Afrika (MENA) pərakəndə satış (riteyl) şəbəkəsinin tərkib hissəsi olan "Avtolüks Azərbaycan" MMC hər iki brendin Azərbaycanda mövqeyinin möhkəmləndirilməsi və inkişafında mühüm rol oynayır və bazarda iştirakını daha da genişləndirməyə hazırlaşır. Bakıda, Aşıq Molla Cümə küçəsində yerləşən yeni mərkəz ölkənin ən iri şəhərinin mərkəzində "Jaguar" və "Land Rover" müştərilərinə yüksək səviyyəli xidmət göstərəcək.

4960 kvadratmetr sahəsi olan müasir mərkəz "Jaguar Land Rover" brendinin bütün dünyada "Jaguar Land Rover" pərakəndə satış (riteyl) sahələrinə uyğun olan yeni korporativ üslubunu əks etdirən qlobal ARCH standartı əsasında inşa edilib. Bu standart müştərilərə ən yüksək səviyyəli müştəri təcrübələrinin yaşadılması üçün canlı və qonaqpərvər ab-havanı gözoxşayan memarlıq və heyrətamiz dizayn konsepsiya ilə bir araya gətirir.

**"Jaguar Land Rover" MENA-nın regional diler şəbəkəsinin inkişafı üzrə direktoru Justin Weaving yeni avtosalonun açılması haqqında fikirlərini bildirdi:**

"Yerli pərakəndə satış (riteyl) tərəfdaşımızın göstərdiyi böyük səylərin sayəsində "Jaguar Land Rover" brendi Azərbaycan bazarında yerini möhkəmləndirir. "Avtolüks Azərbaycan" MMC-nin ölkədə bu cür möhtəşəm "Jaguar Land Rover ARCH" mərkəzini açması ilə qürur duyuruq. Bu mərkəz brendimizin illər boyunca hər zaman xidmət standartlarının mükəmməlliyinə doğru can atmasından xəbər verir".

**"Avtolüks Azərbaycan" şirkətinin baş direktoru Mark Pocock bildirdi ki,** "Biz Azərbaycanın avtomobil sənayesinin nüfuzlu və etibarlı nümayəndəsiyik, çünki biz hər zaman tələbkar müştərilərimizə ən yüksək keyfiyyətli məhsul və xidmətlər təqdim etməyə çalışmışıq".

Yeni açılmış mərkəzimiz "Jaguar Land Rover" xidmət keyfiyyəti standartlarını yeni zirvələrə qaldırır və bu brendi seçmiş sürücülərə lüks avtomobilə layiq olan təcrübə yaşadır. Mərkəzimizdə "Jaguar" və "Land Rover" avtomobillərini dərindən bilən və anlayan ekspert komandası satış və satışsonrası xidmətlərin tam çeşidini əhatə edən kompleks xidmətlər təqdim edir", - deyə Pocock əlavə etdi.

Yeni "Jaguar Land Rover" avtosalonu "Land Rover" brendinin Range Rover, Range Rover Sport, Range Rover Velar, Range Rover Evoque, Land Rover Discovery və Land Rover Discovery Sport və "Jaguar" brendinin XJ, XF, XE, F-PACE, E-PACE və F-TYPE avtomobilləri daxil olmaqla hər iki brendin ən yeni avtomobillərinin geniş çeşidini müştərilərinə təqdim edir.

Yeni mərkəzdə hər iki brendin yaxşı vəziyyətdə olan ikinci əl avtomobillərinin ayrıca satış salonu, orijinal məhsullar və aksesuarların satışı üçün xüsusi sahə də fəaliyyət göstərəcək.

"Avtolüks Azərbaycan" şirkətinin Bakıdakı yeni "Jaguar Land Rover" mərkəzi artıq 1 mart 2019-cu il tarixdə açılmışdır. Mərkəzdə avtomobillərin satışı bazar ertəsi - bazar günləri, saat 10:00-dan 19:00-a kimi, satışsonrası xidmətlər və ehtiyat hissələrinin satışı isə bazar ertəsi - bazar günləri, saat 09:00-dan 18:00-a kimi həyata keçiriləcək.

**Hər hansı əlavə məlumat almaq üçün (+994 12) 983 nömrəsinə zəng edə və ya www.landrover-azerbaijan.com və www.jaguar-azerbaijan.com internet saytlarına nəzər sala bilərsiniz.**











# Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə

## *açıq tender elan edir*

**LOT 1:** ARDNF-də informasiya texnologiyalarının idarə edilməsi üzrə audit xidmətinin satın alınması;

**LOT 2:** ARDNF-nin 20 illik yubileyi çərçivəsində malların (işlərin və xidmətlərin) satın alınması üçün təşkilati şirkətin seçilməsi;

**LOT 3:** İnzibati binanın həyətyanı sahəsinin ön hissəsində asfalt örtüyünün yenilənməsi işlərinin satın alınması;

**LOT 4:** İçməli suyun (balon) satın alınması;

**LOT 5:** Server tipli kompüterlər üçün ehtiyat hissələrinin satın alınması;

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 №-li Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla **http://www.oilfund.az** ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **26 aprel 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-nin yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti,165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- tender təklifi (tender təklifinin qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı.

Podratçılardan tələb olunan sənədlər **05 aprel 2019-cu il, yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **25 aprel 2019-cu il, yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında yerləşən ARDNF-yə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

LOT 5 üzrə iştirak haqqı 50 (əlli) manat , LOT 1, LOT 3, LOT 4 üzrə iştirak haqqı 100 (bir yüz) manat və LOT 2 üzrə iştirak haqqı 300 (üç yüz) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu,**
**Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BİK: NABZAZ 2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular **TSK2019@oilfund.az** ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+994 12) 498-77-53, əlaqələndirici şəxslər LOT 1 üzrə Ülvi Abdullayev (dax.: 1210), LOT 2 üzrə Aynur Səmədova (dax.: 6006), LOT 3, LOT 4 üzrə Elşad Bağırov (dax.: 1010), LOT 5 üzrə Nailə Məmmədli (dax.: 9005), hüquqi məsələlər üzrə Kəmalə Rəhimova (dax.: 8023)).

*Tender komissiyası*


# *Bəhram QASEMİ:* "Ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır"



Ermənistanın baş nazirinin İrana səfəri zamanı Tehrandakı "Ararat" klubunda keçirdiyi görüşdə ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Bəhram Qasemi keçirdiyi həftəlik mətbuat konfransında deyib.

B.Qasemi qeyd edib ki, İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi aydındır. Rəsmi Tehran münaqişənin sülh yolu ilə beynəlxalq prinsiplər çərçivəsində həll olunmasına tərəfdardır. İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

İki ölkə arasındakı münasibətlərə toxunan B.Qasemi nəzərə çatdırıb ki, Azərbaycan və İran xalqları ortaq tarixə, mədəniyyətə, adət-ənənəyə malikdirlər. Bu gün Tehran ilə Bakı arasındakı əlaqələr bütün sahələrdə yüksələn xətlə inkişaf edir. Hər iki dövlətin prezidenti siyasi iradə nümayiş etdirərək əlaqələri inkişaf istiqamətinə yönəldib. Birgə iqtisadi layihələr, beynəlxalq təşkilatlar çərçivəsində yaxın əməkdaşlıq münasibətlərin mehriban qonşuluq və dostluq əsasında qurulduğunu göstərir.

İran bütün qonşuları ilə yaxşı münasibətdə olmağa çalışır və regionda sülhün və təhlükəsizliyin davamlı xarakter daşımasında maraqlıdır.




● İlaxır çərşənbələr

# Od yaradılışın dörd ünsüründən biridir

**Mifoloji-tarixi yaddaş kodunu qoruyub saxlayan Novruz bayramı ərəfəsində Boz aya daxil olan İlaxır çərşənbələrin ikincisi Od çərşənbəsi, yaxud "Üskü çərşənbə", "Atəş çərşənbə", "Xızır çərşənbə", "Üskü gecəsi", "Addı çərşənbə"dir. Odun, atəşin yaranma tarixi çox qədimdir. Hələ ibtidai dövrlərdə insanlar şimşək çaxanda, vulkan püskürəndə, yaxud üzvi maddələrin öz-özünə yanması nəticəsində əldə etdikləri oddan gündəlik həyatda istifadə etmiş, odu sönməkdən qorumuşlar.**

Bu, ibtidai insanı digər canlılardan fərqləndirən əsas faktorlardan biri olmuş, daha sonralar nitq və danışıq mədəniyyəti formalaşmışdır. Tarixi qaynaqlara görə, "insanın təbiət üzərində ilk qələbəsi olan od onun şüurunda və həyatında böyük dəyişikliklər yaratmış, artıq Aşel mədəniyyəti dövründə süni odalma məişətə daxil olmuşdur".

Türkdilli xalqların mifik təsəvvürlərində, Azərbaycan folklorunda Od, Atəş və Günəşin sakrallığını, insan həyatındakı əhəmiyyətini səciyyələndirən ayin, etiqad, mərasimlər sistemi yaranmışdır. Təsadüfi deyildir ki, əski çağlarda oda, günəşə inamla bağlı Ulgen tanrısına müraciətlər olunmuş və ona sitayiş edilmişdir.

Odu müqəddəs sayan əcdadlarımız sübh tezdən günəşi qarşılamağa gedər, hündür bir təpənin üstündə tonqallar qalayar, tonqaldan məşəl götürüb evindəki ocağa od salar, möhtəşəm şadlıq məclisləri təşkil edib "Qodu-Qodu" mərasimini icra edərdilər...

Əcdadlarımızın erkən təsəvvürlərində ilkin antropomorfik görüşləri ifadə edən nəğmələr də vardır ki, bunlar günəşə inamla bağlı motivləri qabarıq şəkildə səciyyələndirir. Məsələn, "Gün, çıx, Gün, çıx" nəğməsində keçəl qız yağışın, buludun, saçlı qız isə günəşin rəmzidir.

### "Günəşə qurban kəsmək"

Od çərşənbəsində icra olunan erkən mərasimlərdən biri "günəşə qurban kəsmək" mərasimi"dir. Mərasimi icra edərkən insanlar sübh tezdən qırmızı kəhər atı günəşə qurban aparardılar. Hündür təpənin üstündə olan at gün doğanda günəşin şərəfinə qurban kəsilərdi. Erkən inanca görə, əgər kəhər at günəşə qurban kəsilərsə, günəş yer üzərində olan insanlara xoşbəxt həyat bəxş edər. "Günəşə qurban kəsmək" mərasimi zamanı məhz qırmızı kəhər atın kəsilməsi ilə bağlı Herodotun "Tarix" əsərində göstərilir ki, günəş səmada çox sürətlə hərəkət edir, qırmızı kəhər at isə yer üzərində heyvanlar arasında sürətli qaçanlardan biridir. Adıçəkilən mərasim Kəlbəcər qayaüstü rəsmlərində də öz əksini tapmışdır. Bu mərasimlərin keçirilməsi heç də təsadüfi olmamışdır. Mifik təsəvvürlərə görə, insanlar günəşi, odu, atəşi nə qədər çox əzizləsələr, onun müqəddəsliyinə inansalar, o zaman günəş al şəfəqlərini yer üzərinə tez göndərər, təbiəti, suyu, torpağı tez isidər və günəş onlara bolluq-bərəkət, xoşbəxtlik, firavanlıq bəxş edər.



- Od imandandır.
- Od küldə gizlənər.
- Oda yanmayan balasına da yanmaz.
- Od ocaqda yanar.
- Od adamı həm qızdırır, həm də yandırır.
- Oda dərdini deyən xeyir aparar.

- Od çərşənbəsində ocağı boş qoymazlar.
- Od çərşənbəsində ocaqdan od verməzlər.
- Ocağın külün dağıtmazlar.

- Ocağı şər vaxtı dağıtmazlar.
- Od çərşənbəsində ağlayan ağacı kəsən sonsuz qalar
- Ocaq istisini sevən od-ocaqlı olar.
- Ocaq yananda səslənirsə, demək, kimsə sözünü danışır.
- Od hisli olarsa - uzaqdan qonağın gələcək - deyərlər.
- Ocaqda kül titrəyəndə, "od xeyrə oynayır" - deyərlər.
- Gün doğanda ziyarətə yola düşərlər.
- Gün düşən yerdə xəstəlik olmaz.
- Gün doğanda doğulan uşaq cəngavər olar.

İnanca görə, Od çərşənbəsində Xızır göydən yerə enib odla, atəşlə qovuşur və bununla da hər yeri qızdırır, bu dəfə ona "Xızır-Xızır", yaxud "Xızır ha Xızır" deyirlər. Od çərşənbəsi axşamında çillədən, əziyyətdən qurtulub rahat, xoşbəxt həyata çatmaq arzusu ilə hər evdə "Xızır atəşi" yandırılardı ki, bu, od kimi paklanmaq, təzələnmək inamına bağlı idi.

Mənbələrdən məlum olur ki, Od çərşənbəsində əski çağlardan xəbər verən "Pülənbəri" mərasimi ("Yanar körpü", yaxud "Nur körpüsü") keçirilərdi. Mərasimdə axşamüstü hündür təpədə kötükdən, yaxud quru ağacdan körpü hazırlanar, ona od vurandan sonra kiçikdən böyüyə qədər hamını, hətta mal-qaranı da "yanar körpü"nün altından keçirərdilər. Orta əsrlərdə Azərbaycana gələn Avropa səyyahları Adam Oleari, Yan Streysin məlumatlarında Şamaxı ərazisində "Puli əmbəri" adlı daş körpünün mövcudluğu təsdiqlənmişdir.

Od çərşənbəsində "Təkə" mərasimi də keçirilərdi. Mərasimdə cavanlar iştirak edər, quru ağacdan təkə müqəvvası düzəldib onu bəzəyərdilər. Cavanlar taxtadan düzəlmiş təkə ilə birlikdə Çərşənbə tonqalının ətrafına yığışıb nəğmələr oxuyar, rəqs edərdilər. Sonra isə təkəni götürüb kəndi, məhəllələri gəzər və belə deyərdilər: "Qışda yeyib şaxta təkəm, olub biz-biz tükləri təkəm, təkəmə arxalıq verin, eviniz olsun abadan" və s. Bundan sonra təkəçilərə çərşənbə payı verilərdi. Təkə mərasiminin keçirilməsi heç də təsadüfi olmamışdır. Türk xalqlarının mifik təfəkküründə keçi kult olaraq mövcud olmuşdur ki, bu, tayfa və coğrafi adlarda da öz əksini tapmışdır, məsələn: Təkəli tayfası, Keçili kəndi və s.

### "Ağırlığım-uğurluğum odda qalsın"

Xalq arasında ayrı-ayrı adət-ənənələr icra edilərdi ki, onların bir qismi bu gün də öz əhəmiyyətini itirməmişdir. Od çərşənbəsində axşamüstü tonqallar qalanar, böyükdən-kiçiyə hamı "ağırlığım-uğurluğum odda qalsın" deyərək tonqalın üzərindən atlanırlar. Hətta inanca görə, körpə uşaqları da tonqalın üstündən keçirmək lazımdır ki, çillədə qalmasınlar. Tonqal üzərindən atlanmaq bəzi hallarda zərdüştilik görüşləri ilə əlaqələndirilir. Lakin bu, doğru deyildir. Əvvəla, zərdüştilik dövründə odu qoruyan kahinlər ağızlarını sarğı ilə bağlayırdılar ki, nəfəsləri oda, atəşə dəyməsin, çünki verilən nəfəs artıq ölü nəfəs hesab olunurdu. Elə bu səbəbdən də "ağırlığım-uğurluğum oda tökülsün, odda qalsın" ifadəsi zərdüştiliyə aid edilə bilməz.

Çərşənbədə tonqal qalayarkən buraya bar verən ağac parçalarını atmaq düzgün sayılmır. Tonqalda daha çox kol-kos, quru odun parçası və qaratikan yandırılır. Şər qüvvələr odu söndürməyə çalışır, ancaq qaratikandan qorxub yaxına gələ bilmirlər. Adətən tonqala üzərlik də atılır ki, onun tüstüsü bəd nəzərləri məhv etsin.

Tonqalın uzun müddət yanması xeyrə yozulur, tonqalı yarımçıq söndürmək qadağandır. Hətta tonqal sönüb külə döndükdən sonra onu dağıtmırdılar, ətrafına 3 dəfə cızıq çəkilərdi ki, bu da evdən, ailədən ruzi-bərəkətin əksik olmaması inancına söykənirdi.

### Oda dərdini deyən xeyir tapar

Adətə görə, çərşənbə tonqalının külü axar suya tökülməlidir.

Zərdüştilik yaranandan sonra Günəşin, Od və Atəşin sakrallığı qorunub saxlanmış, atəşin bir neçə növü ilə bağlı mərasimlər keçirilmişdir. Zərdüştilər istiliyin ilk mənbəyini Ağacın gövdəsində olan istiliyi hesab edir, onun şərəfinə "Şəhrivər", insan bədənində və təbiətdəki istiliyin şərəfinə "Səddə", günəş istiliyilə bağlı "Azərcan", ocaqlarda, atəşgahlarda olan istiliyin şərəfinə "Çırağan" mərasimlərini qeyd etmişlər.

Od çərşənbəsində süfrəyə paxlaplov və quru meyvələrdən ibarət çərşənbə xonçası qoyulur. Günəşin, atəşin rəmzi kimi şamlar, çılçıraqlar yandırılır. Qədim adətə görə, evin künclərinə də şamlar, çıraqlar, çıraqların yanına güzgülər qoyulardı ki, çırağın işığı daha da artsın, bayram əhvali-ruhiyyəsi hiss edilsin. Bu adət "üskübəzəmə" adlanır. Bu adəti çox zaman evin sonbeşiyi icra edərdi, çünki sonbeşik ocaqda qalıb nəsli, soyu davam etdirəndir.

Məlumdur ki, xalq arasında oda salavat verilmiş, insanın yaşadığı yerə də "ocaq" deyilmişdir. Erkən təsəvvürlərdə odla bağlı "Odu közərtmək" oyunu geniş yayılmışdır. Oyunun mahiyyətinə görə, yağışlı, soyuqlu, çovğunlu havalarda belə od qorunur və onun sönməsinə izin verilmir. Odun sakral mahiyyəti folklor mətnlərində də qorunub saxlanmışdır.

Təsadüfi deyildir ki, erkən dövrlərdə milli məişətdəki od-ocaq Qobustan qayaüstü rəsmlərində də özünə yer almışdır. Bu isə türkdilli xalqların mifik dünyagörüşündə Günəş-Od-Atəş silsiləsinin əhəmiyyətini bir daha təsdiqləyir.

# "Sular Novruzu"

**Xalqımızın ulu bayramlarından ən möhtəşəmi olan Novruz erkən dövr mifik düşüncə və təsəvvürləri, ayin-etiqadları, inancları, mərasimləri özündə yaşadıb bu günümüzə yetirən humanizm, həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən mənəvi dəyərlər sistemidir. Novruz insana həyat verən, ilk insanın yaranmasında bilavasitə iştirak edən dörd müqəddəs varlığın adı ilə bağlıdır ki, bunlar Su, Od, Yel və Torpaqdır. Mərasim folklorumuzda törəniş təsəvvürlərini yaradan həmin müqəddəs varlıqlar İlaxır çərşənbələrin rəmzinə çevrilmiş, yaradılış və həyatvericilik funksiyasını formalaşdırmışdır.**

Çərşənbə sözünün etimologiyası ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Birinci varianta əsasən, əski müsəlman təqvimində həftənin "cümə günü" bazar günü hesab olunduğuna görə həftənin V günü "çərşənbə", yəni dörd şənbəyə düşür. Çərşənbə "çaharşənbə" ifadəsinin işlək variantı kimi dilimizə daxil olmuşdur. Mənbələr göstərir ki, "çərşənbə" günü yer üzündə həyatın yaranması gününün axşamı, ərəfəsi sayılmışdır. Hətta həmin gün digər günlərdən daha düşərli, yüngül olduğu üçün "mübarək gün" hesab edilmişdir. İslam aləmində çərşənbə axşamı günü Məhəmməd Peyğəmbərin zövcəsi Aişəyə məxsusdur. Başqa bir söyləmələrə görə, Şərq alimləri təqvim tərtib etməyə çalışıblar, həmin təqvimin hazırlanıb bitməsi çərşənbə axşamına təsadüf etmişdir. Digər təsəvvürə görə, bəzi xalqlarda çərşənbə həftənin ağır günü hesab olunduğu üçün həmin günün xətasız, rahat, sakit keçməsini təmin etmək məqsədilə onun axşamı hazırlıq işləri aparılardı.

Əski inanc və etiqadlara görə, dörd çərşənbənin hər birində bir həyat varlığı "dirilir", oyanır, təzələnir və bununla bağlı olaraq xalq arasında müxtəlif ayinlər, mərasimlər keçirilmişdir. Novruzun müjdəçisinə çevrilən İlaxır çərənbələrin hərəsi mifoloji mənbələrə istinad edir.

### Dirilik çeşməsi

Boz ayın dörd çərşənbəsindən birincisi Su çərşənbəsidir, xalq arasında həm də "Əzəl çərşənbə", "Sular Novruzu", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Zəmzəm çərşənbə", "Sel çərşənbə" və s. adlandırılır.

Məlumdur ki, həm təbiətdə, həm də insan həyatında suyun yeri və əhəmiyyəti müstəsnadır. Susuz həyatı təsəvvür etmək qeyri-mümkündür. Hətta İslamda su sədəqəsi ən üstün sədəqə sayılır. Su möcüzəvi tərkibə, yaradıcı qüvvəyə malikdir. Su həyat mənbəyidir və dünyanın yaranması, yəni ilkin xaos məhz su varlığı ilə bağlıdır. Suyun tərkibi kimyəvi təsir göstərən, həyat üçün vacib olan mütəhərrik ionlar qrupunun yaranması üçün əlverişli mühitdir. Su biokimyəvi proseslərin gedişini, orqanizmdə temperatur, qida və maddələr mübadiləsini tənzimləyir. Məlumdur ki, insan orqanizminin təqribən 70%-i, baş-beyin isə 90% sudan ibarətdir. Suyun ən əhəmiyyətli xassələrindən biri onun yaddaşıdır. Su verilən informasiya və ya kənar təsirlərin daşıyıcısıdır. Yaponiya alimi Masaru Emotonun apardığı təcrübələrə görə, su deyilən sözlərin mənasına uyğun olaraq reaksiyalar verir. Oxunan dualar, deyilən fikirlər suyun keyfiyyətinə müəyyən təsir göstərir.



- Su olan yerdə dirilik olar.
- Sulu el abadan, susuz el viran olar.
- Su axarında salınan el-oba barlı-bərəkətli olar.
- Su dolu qabla qabağına çıxsalar, işin avand olar.
- Lal axan sudan keçməzlər.
- Səfərə çıxan adamın arxasınca su atarlar.
- Yuxuda su görmək aydınlıqdır.

Türk xalqlarının mifoloji düşüncəsində su müqəddəs hesab olunur və su kultu mühüm yer tutur. Xalq arasında Su tanrısı Abanın və Nahidin adı ilə bağlı folklor mətnləri yaranmış və bu günə qədər qorunub saxlanmışdır:

*Aban abana gəldi,*
*Aban imana gəldi,*
*Abana yol verin,*
*Abana qol verin.*

*Al Aban haylı gəlib,*
*Al Aban paylı gəlib...*

Suyun müqəddəsliyini, paklığını tərənnüm edən Novruzun başlıca rəmzlərindən olan Su çərşənbəsi şifahi yaddaşda zəngin inanc və etiqadlar, mərasimlər sistemində təzahür edir. Su çərşənbəsi suya inam, suya tapınma ilə bağlıdır. Çox erkən dövrlərdən insanlar hələ gün doğmamış su üstünə gedər, pak, təmiz, axar suda yuyunar və bununla da özlərini paklanmış hesab edərdilər. Əski inanclara görə, Su çərşənbəsində insanlar axar sudan gətirib evə, həyət-bacaya səpər, bununla da müşküllükdən, çətinlikdən, azar-bezardan azad olmalarına inam bəsləyirdilər. Suyun müqəddəsliyi erkən folklor mənbələrində, o cümlədən "Kitabi-Dədə Qorqud"da Qazan xanın "Su həq didarın görmüşdür" ("Su Tanrının üzünü görmüşdür") müraciətində, "Koroğlu"da Qoşabulağın timsalında, Xızırın Dirilik çeşməsində içdiyi suda əyan olmuşdur. Türk mifoloji qaynaqlarında "idi" kimi sahib mənasını verən "su əyəsi" obrazına rast gəlmək olar ki, o, bütün əyələrdən güclü hesab olunur. Hətta bəzi mifoloji təsəvvürlərə görə, "su əyəsi", yaxud "su yiyəsi" qadın obrazı kimi səciyyələndirilir. Digər mənbəyə görə, "suyun altında su əyəsinin öz səltənəti, öz sarayı var. Həmin su əyəsinin adı İlyasdır". İnanca görə, su üstünə gedərkən mütləq su əyəsinə salam verməк lazımdır.

### Su aydınlıq saçar

Əski türklər bulaqları "qara su" yəni, ulu, ilahi, müqəddəs hesab etmiş və bulağı yeraltı qaranlıq dünya ilə yerüstü işıqlı dünya, eləcə də olum və ölüm arasındakı bir yol kimi qəbul etmişlər. Ona görə də həmin suyu "abihəyat", "dirilik suyu" adlandırmışlar. Xalqımız onu müxtəlif adlarla, "həyat suyu", "Xızır suyu", "Zəmzəm suyu" və s. ilə ifadə etmişdir. Folklorumuzda Dirilik suyu ilə bağlı əfsanə və rəvayətlər mövcuddur. Həmin süjetlərə görə, Xızır, yaxud Xıdır Dirilik suyunu tapıb içir, əbədi həyat qazanır, ona görə də "nəbi"lik - peyğəmbərlik statusunu qazanır.

Xalq ənənəsində yuxunu axar suya danışmaq və sanki bununla yuxunun mənfi təsirindən qurtulmaq inamı da mövcuddur ki, bu da suyun aydınlığı və arzuolunmaz enerjini yuyub aparması inancına söykənir.

Erkən inanclara görə, "Sular toyu" və ya "Axar sular Novruzu" adlandırılan bu çərşənbə axşamında dan ulduzu doğulan zaman yer üzündəki bütün axar sular bir an donub dayanır, hətta bu zaman suya heç nə batmır.

Başqa bir inanca görə, Su çərşənbəsi axşamında Xızır ilə İlyasın görüşü baş tutur. Mifik təsəvvürlərə görə, Xızırla İlyas görüşərkən sular ətrafındakı bütün canlılar, xüsusən bitkilər, ağaclar Xızırla İlyasa və yuxudan oyanmağa başlayan suya səcdə edir, sonra isə onlar əvvəlki vəziyyətlərinə qayıdırlar. Əcdadlarımız "kimə bu möcüzəli məqamı görmək nəsib olarsa, onun bütün arzuları həyata keçər" deyiblər.

Əcdadlarımızın erkən təsəvvürlərində bu görüşdən sonra donmuş sular oyanır, təzələnir, paklanır, aşıbdaşmağa başlayır.

### Qoy su aparsın səni...

Su sağlamlıq rəmzidir. Su çərşənbəsində müəyyən ayinlər icra edilərdi ki, bunların mahiyyəti, özəllikləri diqqəti cəlb edir. Məsələn, Su çərşənbəsində ərgən qızlar axar sudan "lal su" , yəni suyu evə gətirərkən bir kimsə ilə danışmazdılar. Suyu bir neçə qaba qoyub saxlayardılar. Qızlar bir yerə yığışar, hərə öz üzüyünü saçına sürtüb suya salardı. İnanca görə, üzük suda neçə dəfə cingildəsə, demək, həmin yaşda gəlin köçəcək.

Su çərşənbəsində insanlar sübh tezdən axar suyun üstünə gedər, "ağırlığım-uğurluğum suya, azar-bezarım suya" deyib su üstündə dərdlərini danışar və sanki öz çətinliklərini "təzə su" üstündə qoyub gedərdilər. Beləliklə də Su çərşənbəsi mərasimi icra olunardı.

Su çərşənbəsi ərəfəsində günəş zodiak qurşağında Dolça bürcündən Balıqlar bürcünə keçir və Müştəri - Yupiter planetinin himayəsinə daxil olur. Ona görə də Əzəl çərşənbə süfrəsində ağzına qızıl keçirilmiş balığın və dolçada suyun olması mütləqdir.

Xalqımızın şifahi yaddaşında milli həyatı, erkən baxışları, mənəvi əxlaqi dəyərləri tərənnüm edən və artıq milli təfəkkürdə qətiləşən bədii mətnlər toplusunda suya inam və tapınma ilə bağlı saysız nümunələrə rast gəlmək olar. Onlar ibrətamizlik rəmzi olan atalar sözü və məsəllərdə, bayatılarda, inanclarda, türkəçarələrdə, tapmacalarda bugünümüzlə səsləşməkdədir.

*Su səni,*
*Su göyərtmiş süsəni,*
*Keçmə namərd körpüsündən,*
*Qoy aparsın su səni...*

*Su axır samanlıqdan,*
*Yol keçir qaranlıqdan.*
*Çalış yaxşılıq elə,*
*Nə çıxar yamanlıqdan?*

Erkən təsəvvürlərlə bağlı suya inamın tarixi köklərindən xəbər verən həm mifik, həm də xalq yaradıcılığı nümunələri çağdaş dövrümüzdə öz aktuallığını nəinki itirməmiş, onların milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından əhəmiyyəti daha da artmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru***

● Gəlişi gözəl Novruz

# Cocuq Mərcanlının əbədi baharı



**Elimizin, obamızın qəribə adətləri var. Yazın gəlişini yüz illərdi ki, bayram edirik. Qış yuxusundan tumurcuq-tumurcuq oyanan təbiət yavaş-yavaş cana gəlir, yenilənir. Yazın ılıq nəfəsiylə dağların qarı əriyir, çaylar aşıb-daşır.**

Kol dibindən boylanan bənövşənin bənzərsiz ətri, həsrətdən saralan nərgizin rayihəsi sanki nəğməkar quşların dilini açır. Gürşad suların şırıltısı, güldən-gülə qonan bülbüllərin cəh-cəhi ecazkar bahar simfoniyası kimi könülləri riqqətə gətirir.

Baharın gəlişi hər yerdə gözəldir. Yazı qürur yerimiz olan Cocuq Mərcanlıda qarşılamağın, bu cənnətməkan diyarın qəhrəman övladları ilə çərşənbə tonqalının başında bir olmağın zövqü, səfası isə tamam başqadır. Sevimli şairimiz Mikayıl Müşfiqin məşhur misraları burada necə də yerində səslənir: "Bu yaz bir başqa yazdır, bu yaz daha da xoşdur".

Cocuq Mərcanlı uzun illər həsrət qalıb Novruz tonqallarının istisinə. Nankor və amansız düşmənlərimiz olan Ermənistanın silahlı birləşmələri bu yerləri işğal edib, odlara qalamış, viran qoymuşdular. Ordumuzun 2016-cı ilin Aprel döyüşlərində qazandığı zəfər hesabına xeyli ərazi işğaldan azad edildi. Lələtəpə yüksəkliyini ələ keçirən ordumuz böyük bir əraziyə nəzarət imkanı qazandı. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin böyük qayğısı ilə kiçik Cocuq Mərcanlı əbədi bahara qovuşdu. Sakinləri min bir həvəslə geri dönüb doğma yurdun hər qarış torpağının, daşının, qayasının, həsrətdən qurumuş kolunun, ağacının başına pərvanə kimi dolandılar. Dövlətin yetərli qayğısından güc alıb yağı düşmənin viran qoyduğu Cocuq Mərcanlının xarabalıqları üzərində yeni və müasir bir kənd qurdular. Şanlı ordumuzun 2016-cı ilin aprel ayında keçirdiyi uğurlu əks-hücum nəticəsində Cəbrayıl və Füzuli rayonları istiqamətində geniş ərazini nəzarətdə saxlayan Lələtəpə yüksəkliyi erməni hərbi birləşmələrindən azad edildikdən sonra dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün əlverişli şərait yaratmaq məqsədilə qısa müddət ərzində dövlət səviyyəsində bərpa və əsaslı yenidənqurma işləri görülmüş, həyat əvvəlki axarına düşmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağa Böyük qayıdışın başlanğıcını qoyduğu, "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 24 yanvar və 15 iyun 2017-ci il tarixli sərəncamlarına əsasən kənddə 27 hektar ərazidə geniş tikinti-bərpa, quruculuq işləri aparılmış, 150 fərdi yaşayış evi, 96 şagird yerlik ümumtəhsil məktəbi, məscid, uşaq bağçası, klub-icma mərkəzi, həkim məntəqəsi, poçt, inzibati bina elektrik yarımstansiyası, hidrometeoroloji stansiya, "Azəravtoyol" ASC-nin 13 saylı xüsusi təyinatlı yol istismar müəssisəsi, "Azərsu" ASC-nin Cocuq Mərcanlı sahəsi və digər müvafiq infrastruktur sahələri yaradılmışdır. İsti və doğma münasibəti, gerçək övladlıq məhəbbəti ilə Cocuq Mərcanlını əbədi bahara qovuşduran Prezident İlham Əliyev 14 iyun 2017-ci ildə Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpadan sonrakı açılışında iştirak etmiş, birinci mərhələdə 50 Cocuq Mərcanlı ailəsinin öz doğma kəndinə qayıtmasına xeyir-dua vermişdir.

Cocuq Mərcanlı kəndinə köçürülmüş əhalinin təhlükəsizliyi və əməkqabiliyyətli sakinlərin məşğulluğu istiqamətində mühüm tədbirlər həyata keçirilir. Kənddə yaşayış bərpa olunduqdan sonra cəbhə bölgəsində düşmənlə üzbəüz mövqedə dayanan əsgər və zabitlərimiz arxalarında dinc mülki əhalinin yaşamasından ruhlanaraq səngərlərdə daha ayıq-sayıq dayanır, sakinlərin təhlükəsizliyi üçün vəzifə borclarını layiqincə yerinə yetirirlər. Kənd sakinləri isə rəşadətli Azərbaycan Ordusunun gücünə güvənərək doğma yurdlarında özlərini əmin-arxayın, rahat hiss edir, təsərrüfat işlərilə məşğul olurlar.

Cocuq Mərcanlı kəndinin gələcək inkişafı, burada yaşayan əhalinin məşğulluq məsələləri Prezident İlham Əliyevi hər zaman düşündürür. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq aidiyyəti dövlət strukturları, ölkəmizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, ictimai birliklər və iş adamları vaxtaşırı Cocuq Mərcanlıya səfərlər edir, ərazi üçün xarakterik olan layihələrin reallaşmasına təşəbbüs göstərirlər. İqtisadiyyat Nazirliyinin xətti ilə burada həyata keçirilən ilk layihə yem emalı müəssisəsidir. İqtisadiyyat Nazirliyinin və Türkiyə Respublikasının birgə təşkilatçılığı ilə burada istixana və arıçılıq təsərrüfatı yaradılmışdır. Daha bir maraqlı layihənin, suvenir istehsalı müəssisəsinin tikintisinə başlanmışdır. Layihənin müəllifləri Azərbaycan hökuməti və türkiyəli iş adamları ictimai birliyidir. Burada istehsal olunacaq məhsullar "Cocuq Mərcanlı" brendi ilə satışa çıxarılacaqdır.

Qayğı Cocuq Mərcanlını müasir yaşayış məntəqəsinə çevirmişdir. Keçən ilin sonlarında kənddə 14 min kvadratmetr ərazini əhatə edən mədəniyyət və istirahət parkı istifadəyə verilmişdir. Parka futbol meydançası, uşaq əyləncə sahəsi, yay teatrı, kafe, 3 ədəd söhbətgah və s. daxildir.

Üzümüzə gələn yazı Cocuq Mərcanlıda ümidlər baharı kimi gözləyirlər. Çərşənbə torpaqlarının başında səslənən söhbətlərin əsas mövzusu HÜCUM, ZƏFƏR, QƏLƏBƏDİR. Xan Arazın sahilində baharın özü kimi yeniləşən Cocuq Mərcanlının sakinləri böyük qələbənin tezliklə qazanılacağına birmənalı şəkildə inanırlar. Məktəb direktoru Zamiq Həziyevin ocaq başındakı söhbəti də məhz bu inamdan qaynaqlanır.

Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, ordumuzun yenilməz qüdrəti sayəsində Qarabağımızın tezliklə işğaldan azad olunacağı zamanın hökmünə çevrilməkdədir. Bu gün Cocuq Mərcanlıda şölələnən çərşənbə tonqalları, inşallah, gələn Novruz bütün Qarabağda alovlanacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Leyla Əliyevanın “Bizim həyət” layihəsi paytaxtın simasını müasirləşdirir

## Abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib






Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

Martın 4-də “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonunun Zığ yolu, 9 ünvanında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir.



Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə mini-futbol, voleybol və basketbol meydançaları, 6 idman qurğusu, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi, o cümlədən 19 oturacaq və fontan quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzinin təmin edilməsinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idman məşğələlərinə marağın yaradılmasına nail olmaqdır.

Sakinlərin istəkləri nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 5000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on yeddinci həyətdir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızda abadlaşdırılmağa ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

***Yasəmən MUSAYEVA,*** ***“Azərbaycan”***

# “Təzadlar” qəzeti Mətbuat Şurasının “qara siyahı”sına qaytarıldı

Azərbaycan Mətbuat Şurasının “Reket jurnalistika”ya qarşı mübarizə və apelyasiya komissiyalarının birgə iclası keçirilib.

İclasda şuranın şikayətlər üzrə komissiyasının “Təzadlar” qəzeti ilə bağlı “Reket jurnalistika”ya qarşı mübarizə komissiyasına ünvanladığı təqdimat ətrafında müzakirə aparılıb.

Müzakirə zamanı bildirilib ki, “Təzadlar”ın fəaliyyətində “Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları”nın prinsiplərinin pozulması halları davamlı hal almaqdadır. Qəzetin adı vaxtilə şuranın “qara siyahı”sında yer alıb. MŞ-nin “Reket nəşrlər”in müəyyənləşdirilməsinə dair təlimatında göstərilir ki, adı “qara siyahı”dan çıxarılmış kütləvi informasiya vasitəsi bundan nəticə çıxarmadığı halda, onun adı yenidən həmin siyahıya qaytarıla bilər. Sözügedən nəşr barədə Azərbaycan Mətbuat Şurasına son bir il ərzində intensiv müraciətlər daxil olub, həmçinin qəzet şuranın şikayətlər üzrə komissiyasının tövsiyələrinə əhəmiyyətsiz yanaşıb. Buna görə də təklif edilib ki, “Təzadlar” qəzetinin adı yenidən şuranın “qara siyahı”sına daxil edilsin.

Apelyasiya Komissiyası tərəfindən “Ailə”, “Avrotayms”, “Bakı press”, “Güzgü”, “Dünya kriminal” və “Obyektiv fikir” qəzetlərinin adlarının şuranın “qara siyahı”sından çıxarılması təklif olunub. Nəzərə alınıb ki, sözügedən nəşrlər barədə uzun müddətdir şuraya şikayətlər daxil olmur, bəziləri artıq fəaliyyətini dayandırıb. Bununla bağlı qərar yekdilliklə qəbul edilib.

# Azərbaycan alimləri Fransada keçirilən beynəlxalq elmi konfransda iştirak ediblər

Fransanın Nitsa şəhərində AMEA-nın Fəlsəfə İnstitutunun və Nice Sophia Antipolis Universitetinin birgə təşkilatçılığı ilə “Bərabərlik: fəlsəfədən hüquqa” mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib. Bir neçə dövlətin filosoflarının və hüquqşünas alimlərinin təmsil olunduğu konfransda ölkəmizi AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, Nice Sophia Antipolis Universitetinin fəxri doktoru, professor İlham Məmmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının professoru, hüquq üzrə elmlər doktoru, Nice Sophia Antipolis Universitetinin fəxri doktoru İsaxan Vəliyev, Nice Sophia Antipolis Universitetinin fəxri doktoru, Fəlsəfə İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Zöhrə Əliyeva və həmin institutun elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru Sevinc Həsənova təmsil ediblər.

Tədbirdə “Hüquq fəlsəfəsində əxlaq, ədalət və mədəniyyət problemləri” mövzusunda çıxış edən professor İlham Məmmədzadə əxlaqın, ədalətin və davranış mədəniyyətinin fəlsəfi mahiyyətindən söhbət açıb, cəmiyyətin inkişafının hazırkı mərhələsində bu kateqoriyaların insanlar arasında bərabərliyin təmin edilməsində xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, daha sonra beynəlxalq münasibətlərdə bərabərlik problemlərinə toxunaraq Xocalı soyqırımının mahiyyətindən danışıb, ermənilərin Xocalı şəhərində törətdiyi kütləvi qırğını və bu qırğına münasibətdə ikili standartların mövcudluğunu bərabərlik hüququnun pozulmasının xarakterik nümunəsi kimi qiymətləndirib.

“Yaşamaq hüququ: fəlsəfi mahiyyət və hüquqi problemlər” mövzusunda çıxış edən professor İsaxan Vəliyev bütün digər insan hüquqlarının yaşamaq hüququndan törədiyini nəzəri cəhətdən əsaslandıraraq, bu hüququn hər cür pozulmasına görə məsuliyyət məsələlərinə toxunub. O qeyd edib ki, müasir dünyada baş verən proseslər, bir sıra güc dövlətlərinin dünyanın yenidən bölüşdürülməsi iddiasına düşməsi, zəif inkişaf etmiş dövlətlərin təbii sərvətlərinin ələ keçirilməsi uğrunda silahlı münaqişələrdə insanların bərabərlik və yaşamaq hüququna əhəmiyyət verilməməsi siyasi müstəvidə adi hala çevrilib və bu vəziyyət bir sıra hüquqi məsələlərin ənənəvi həllinə yeni münasibət tələb etməkdədir. Əks təqdirdə, yaşamaq şansının reallaşmasına imkan verən vasitələrdən istifadə etməklə həyatda qalmaq istəyi gündəlik həyatımızda daha çox müşahidə edilən hala çevriləcəkdir.

Konfransda Zöhrə Əliyevanın “Sosial-fəlsəfi doktrinalarda ədalət problemi ətrafında düşüncələr”, Sevinc Həsənovanın “Makiavellinin əsərlərində əxlaqın və siyasətin nisbəti” mövzularında çıxışları yüksək maraqla qarşılanıb.

Diskussiya şəraitində keçən tədbirdə Nice Sophia Antipolis Universitetinin Fəlsəfə, iqtisadiyyat və hüquq fakültəsinin dekanı, professor Kristian Vallar, həmin fakültənin professorları Lea Raso, Philippe Vecrel, Elodie Auda və digərləri bərabərlik məfhumunu müxtəlif elmi müstəvilərdə təhlil edərək mövcud beynəlxalq qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi təşəbbüsü ilə çıxış ediblər.

Sonda professor İsaxan Vəliyev tərəfindən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, tarix elmləri doktoru, professor Əli Həsənovun müəllifi olduğu “Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması” (Azərbaycan, türk, rus, ingilis, fransız, ərəb və Çin dillərində) və “Азербайджан в системе геополитических отношений на Южном Кавказе и в Каспийско-Черноморском бассейне” kitablarının bir neçə nüsxəsi Nice Sophia Antipolis Universitetinin kitabxanasına hədiyyə edilib.

***“Azərbaycan”***


## BİLDİRİŞ

*“Azərbaycan İnvestisiya Şirkəti” ASC avtomobillərin təmir xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.03 2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## “Təmiz Şəhər” ASC tullantı daşıyan xüsusi texnikanın satın alınması ilə əlaqədar açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir:

**Tullantı daşıyan xüsusi texnikanın satın alınması.**

Müqavиləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Təmiz Şəhər” ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464-41-11)

**İştirak haqqı 400 manat.**
**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 aprel 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 aprel 2019-cu il, saat 17:00-a** qədər “Təmiz Şəhər” ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **24 aprel 2019-cu il, saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Tender komissiyasının 26 fevral 2019-cu il tarixli yekun protokoluna əsasən, “Təmiz Şəhər” ASC tərəfindən ekoloji monitorinq və laborator analizlərinin aparılması işlərinin satın alınması məqsədi ilə keçirilmiş açıq tenderdə “Xəzər Ekoloji Laboratoriyası” MMC qalib gəlmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Tender komissiyasının 26 fevral 2019-cu il tarixli yekun protokoluna əsasən, “Təmiz Şəhər” ASC tərəfindən xüsusi texnikalar üçün ehtiyat hissələrinin satın alınması məqsədi ilə keçirilmiş açıq tenderdə “Hayat Group” MMC qalib gəlmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Tender komissiyasının 26 fevral 2019-cu il tarixli yekun protokoluna əsasən, “Təmiz Şəhər” ASC tərəfindən dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması məqsədi ilə keçirilmiş açıq tenderdə “Az. Express Cool” MMC qalib gəlmişdir.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC

Reklam daşıyıcıları istehsalı üçün alüminium “klik” profillərinin satın alınması üçün

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.03.2019-cu il saat 16.00 tarixinədək qəbul olunur. Təkliflər 11.03.2019-cu il tarixində saat 15:30-da açılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Rəfili 16 tel:(012) 490-00-91**
**Əlaqələndirici şəxs: İlqar Qasımov**

## “Bakı Metropoliteni” QSC

Xüsusi dekorativ fasad üzlük elementlərinin satın alınması üçün

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.03.2019-cu il saat 16.00 tarixinədək qəbul olunur. Təkliflər 11.03.2019-cu il tarixində saat 15:00-da açılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Rəfili 16 tel:(012) 490-00-91**
**Əlaqələndirici şəxs: İlqar Qasımov**

## BİLDİRİŞ

*Göyçay Rayon İcra Hakimiyyəti ictimai işlərdə işləyən işçilərə geyimlərin və iş ləvazimatlarının alınması işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (020)27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 11.03.2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi 118**

***Tender komissiyası***

## Azərbaycan Turizm və Menecment Universiteti konfransların keçirilməsinin satın alınması üçün

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1.** "Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər" adlı beynəlxalq elmi-praktik konfransın keçirilməsi

**LOT -2.** "İdarəetmədə multikultural dəyərlər" mövzusunda 4-cü respublika elmi konfransının keçirilməsi

Tender iştirakçılarına təklif edilir ki, bu layihə üzrə öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə, yazılı surətdə (Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23) təqdim etsinlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ixtisas göstəricilərinə dair sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından 7 (yeddi) bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

İştirak haqqı LOT-lar üzrə aşağıdakı məbləğdə təşkil edir:
**LOT -1. 70 manat.**
**LOT -2. 70 manat.**

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçılar iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidirlər:

**VÖEN: 1500817681**
**Hesab: AZ27İBAZ40090019445931153206**
**Bankın adı: ABB ASC Nərimanov filialı**
**VÖEN: 9900001881**
**Kod: 805540**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T.: İBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 aprel 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 aprel 2019-cu il, saat 17:00-a** qədər Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23 ünvanında yerləşən Azərbaycan Turizm və Menecment Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tenderdə iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təklifi zərfləri **23 aprel 2019-cu il saat 10:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, məhəllə 822/23, AZ1072

Tel: (+994) 55 203 -25- 33.

***Tender komissiyası***

Təkrar

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti öz təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması, əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti öz təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması, əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464-41-11)

İştirak haqqı **400** manat.
**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *[illegible]*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 aprel 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 aprel 2019-cu il,** saat 17:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 aprel 2019-cu il** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 3 LOT üzrə dəftərxana ləvazimatlarının (LOT 1), təsərrüfat mallarının (LOT 2) və işlək materialların (LOT 3) satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq

### açıq tender elan edir

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;
- maliyyə durumu qənaətbəxş olmalı;
- texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;
- vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır.

Tenderdə iştirak etmək istəyənlər 200 (iki yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan əldə edə bilərlər:

Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi

Əlaqələndirici şəxs: Azad Musayev, tel: 493-88-67 (daxili nömrə: 22-82)

**Bank rekvizitləri:** Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22

Alan: İqtisadiyyat Nazirliyi
VÖEN:1700012751
Hesab №: AZ82CTRE00000000000002098501

**Ödənişin təyinatı mütləq göstərilməlidir!**

Təyinatı: Tenderdə iştirak haqqı
İqtisadiyyat Nazirliyi
XHK 2098501
Büdcə səviyyəsinin kodu: 7
İqtisadi təsnifat: 142340

**Ünvan:** AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84. Hökumət Evi
Telefon: 493-88-67

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi həcmində təklifin təminatı;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*

İddiaçı tenderin əsas şərtlər toplusunda göstərilən bütün maddələrə dəqiq əməl etməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 aprel 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 aprel 2019-cu il saat 17:00-a qədər İqtisadiyyat Nazirliyinə (ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84, Hökumət Evi) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 1 may 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender təklifinin güvvədə olma müddəti tender prosedurunun başlandığı gündən etibarən ən azı 30 (otuz) bank günü təşkil etməlidir.

Tender təklifinin təminatı tender prosedurunun başlandığı gündən etibarən ən azı 60 (altmış) bank günü (tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü) çox olmalıdır və təklifin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

Təkrar

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri Uşaq Evləri İdarəsinin maddələr üzrə xidmətlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**LOT-1. Bir sıra içməli su və kanalizasiya sistemi mövcud olmayan ərazilərdə yerləşən körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərində içməli su ilə təmin olunmasının və çirkab suların daşınması**

**LOT-2. Körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinin balansında olan elektrik avadanlıqlarına, əsas vəsaitlərə baxış keçirilməsi və texniki rəyin verilməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT-1 üzrə 200 manat, LOT-2 üzrə 100 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhər İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Məmmədova Raya Yusif qızı, tel:492-53-06

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H: AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə təsnifatının kodu 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

[illegible]

**Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarıxdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *İddiaçının son bir ildəki fəaliyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru " Dövlət Satınalmalr haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 02 aprel 2019-cu il saat 17-00-a qədər, tender təklif və bank zəmanəti isə möhürlənmiş, ikiqat zərfdə 10 aprel 2019-cu il saat 17:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə ( ünvan: İstiqlaliyyət küç.-18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zarflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 11 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

# "Azercell" daha bir karyera sərgisində iştirak etdi

"Azercell Telekom" MMC həyata keçirdiyi layihələri ilə tələbələrin fərdi və akademik inkişafına yönəldilmiş fəaliyyətini davam edir. Bu dəfə "Azercell" mart ayının 1-də ADA Universitetində təşkil edilən "ADA Karyera Sərgisi 2019"-un fəal iştirakçısı olub.



Sərgidə "Azercell"in İnsan Qaynaqları departamentinin mütəxəssisləri işə qəbul olmaq istəyən məzun və tələbələrin suallarını cavablayıb, şirkətdə mövcud olan vakansiyalar, xüsusi olaraq tələbələr üçün keçirilən proqramlar barədə geniş məlumat təqdim ediblər.

Qeyd edək ki, ADA Universitetində ənənəvi olaraq karyera sərgisinin təşkil edilməsində əsas məqsəd gənclərdə məşğulluq bazarı barədə təsəvvür yaratmaq, onlara iş bazarındakı ən aparıcı qurumlar ilə bilavasitə ünsiyyətdə olub, karyera həyatının mühüm seçimini etməkdə kömək göstərməkdir. Bu il fevral ayının 28-dən mart ayının 2-dək davam edən karyera günlərində, 1 mart tarixində, məhz İT və telekommunikasiya sahələrini təmsil edən şirkətlər öz stendlərini təqdim edib.

"Azercell Telekom" MMC tərəfindən istedadlı gənclərə dəstək olmaq məqsədilə hər il Tələbə Təqaüd Proqramı və Təcrübə Proqramları keçirilir. Bu il Tələbə Təqaüd Proqramı çərçivəsində 1398 müraciət mərhələli seçim nəticəsində dəyərləndirilib və 25 tələbə "Azercellin Təqaüdçüsü" adına layiq görülüb. Qaliblər ali təhsillərinin sonunadək "Azercell"dən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqda biliklərini artırmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə, məlumat sessiyalarında və kurslarda iştirak etmək imkanını əldə ediblər.

"Azercell" şirkəti bundan sonra da istedadlı gənclərin uğurlu karyera qurması üçün öz dəstəyini göstərməkdə davam edəcək.

***"Azərbaycan"***

***Vergilər Nazirliyinə məxsus ƏTZ seriyalı 002062 nömrəli vəkalətnamə itdiyi üçün etibarsız sayılır.***

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

### DÜZƏLİŞ

Talassemiya Mərkəzi Publik hüquqi şəxsin 1 mart 2019-cu il tarixdə dərc olunmuş təkliflər sorğusu elanında sənədlərin qəbulu 09 mart 2019-cu il saat 17:00-a, zərflərin açılma tarixi 11 mart 2019-cu il saat 15:30-a dəyişdirilmişdir.

Tender komissiyası

## ALLAH RƏHMƏT ELƏSİN!

Abid Şərifov ailəsi ilə birlikdə Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Qəzənfər Əhmədov Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" ASC-nin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AY Konsaltinq" MMC-nin rəhbərliyi və kollektivi Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8571
Sifariş 702
Qiyməti 40 qəpik